# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- İsaxan İsaxanlı. 2013-2014-cü tədris ili: tələbə qəbulu rəqəmlərdə 14
- Təhsil 16
- "Həftə içi" qəzetinin Hamlet İsaxanlı ilə müsahibəsi. *(Atif Sarıxanlı)* 18
- Xəzər Universitetinin Azərbaycanda ilk dəfə keçirdiyi təlimlər 22
- *Abdulla Suvar*. "Məhəbbət əfsanəsi" və ya əfsanəyə dönmüş ömür 24
- Elm 26
- "Arşın mal alan" Los-Ancelesi fəth etdi 28
- *Jamala I. Mammadova*. Owen Wister's *The Virginian* and several implications concerning the review of the novel 32
- SalamNews-un Sədaqət Qəhrəmanova ilə müsahibəsi. *(İ. Amid)* 34
- Cəmiyyət 38
- *Халил Меджидоглу*. Россия, которую невозможно было не любить 41
- Azərbaycan Respublikasında elmi işçilərin attestasiyasının keçirilməsi qaydaları 46
- İslam dünyada 49
- *Necati Cumalı*. Təyyarə 52
- Turizm 55
- *Əjdər Ağayev*. Şeirlər 58
- *Elçin Hüseynov*. "Qalaaltı" suyu-ecazkar şəfa ocağı, yaxud Azərbaycanın "Naftusiya"sı 60
- Təbabət 62
- Mozaika 65
- İdman 68
- Dünya məktəbi 76



XƏZƏR XƏBƏR

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Cəmil HƏSƏNLİ**
**Nizami CƏFƏROV**
**Knyaz ASLAN**
**Əfqan ABDULLAYEV**

Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Nigar AYDƏMİROVA**

Foto:
**MEDİA MƏRKƏZİ**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

### ƏMƏKDAŞIMIZ “DİN VƏ CƏMİYYƏT” VERİLİŞİNDƏ

“Xəzər Xəbər” jurnalı baş redaktorunun müavini, əməkdar jurnalist Əlirza Balayev avqustun 23-də İctimai TV-nin “Din və cəmiyyət” verilişində iştirak etdi. İslam əxlaqı mövzusuna həsr olunmuş verilişdə Ə. Balayev mükəmməl bəşəri dəyərləri özündə ehtiva edən bu əxlaqın ümumilikdə insanların həyat tərzinə, davranışına təsir göstərmək gücünə malik olmasından və bu mənada dini təsisatların cəmiyyət həyatına daha fəal nüfuz etməsinin zəruriliyindən və digər məsələlərdən danışdı.

### HAMLET İSAXANLI “GƏNCLƏR VƏ MÜTALİƏ” PROQRAMINDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı avqustun 28-də İctimai radionun “Gənclər və mütaliə” proqramında iştirak etmiş və suallara cavab vermişdir.

### HAMLET İSAXANLI “DİN VƏ CƏMİYYƏT” VERİLİŞİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı avqustun 30-da İctimai TV-nin “Din və cəmiyyət” verilişində iştirak etmişdir. O, islam sivilizasiyası, islamın qızıl çağında elmin inkişafı, ayrı-ayrı elm sahələri və elm adamları, islam sivilizasiyasının zəifləməsi səbəbləri kimi məsələlər ətrafnda danışmış və suallara cavab vermişdir.

### ASAIF-İN XI YAY FORUMU

Xaricdə Təhsil Alan və Məzun Olmuş Gənclərin Beynəlxalq Forumu (ASAIF) avqustun 30-dan sentyabrın 1-dək “Bizim forum, bizim seçim, bizim Azərbaycan” devizi altında XI Yay Forumu keçirmişdir. Forum Bakıda işə başlamış, Qəbələdə başa çatmışdır.

Forumun keçirilməsində əsas məqsəd tələbə və məzunlar arasında şəbəkələşmə prosesini gücləndirmək və xaricdə məzun olmuş gənclərin hazırda təhsil alan gənclərlə təcrübə mübadiləsini təmin etməkdir.

ASAIF-in həmtəsisçilərindən biri Xəzər Universitetinin İnsan Resursları Departamentinin direktoru Ülkər İsayevadır.

Khazar review

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Knyaz ASLAN
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Nigar AYDEMİROVA

Photo:
MEDIA CENTRE

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93
E-mail: redaksiya@khazar-view.org

Certificate: 376
Index: 67178
Order: 190
Copies: 3000

# UNİVERSİTET XƏBƏRLƏRİ

### UNİVERSİTETİMİZİN YENİ NƏŞRİ – “XƏZƏR UNİVERSİTETİ. ƏSASNAMƏLƏR VƏ QAYDALAR TOPLUSU”




Xəzər Universitetinin Nəşriyyatında “Xəzər Universiteti. Əsasnamələr və qaydalar toplusu” adlı kitab çapdan çıxmışdır. Redaksiya heyəti prorektorlar Məhəmməd Nuriyev, Rafiq Əhmədov və rektor assistenti İsaxan İsaxanlıdan ibarət olan topluda universitet həyatının bütün sahələrini tənzimləyən 50-ə qədər sənəd mövzular üzrə 7 bölmədə verilmişdir. Kitab Xəzər Universitetinin tələbələri, professor-müəllim və işçi heyəti üçün nəzərdə tutulmuşdur.

Kitabın redaktoru Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır. O, topluya qısa ön söz də yazmışdır.

### ƏMƏKDAŞIMIZ “YENİ DALĞA” PROQRAMINDA

Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Ülkər İsayeva sentyabrın 5-də İctimai Televizyanın “Yeni dalğa” proqramında “ Yeni mövsüm, yeni başlanğıc” mövzusunda ekspert kimi çıxış etmişdir.

### UNİVERSİTETİMİZİN KEÇİRDİYİ TƏLİM KURSU İLƏ ƏLAQƏDAR TƏŞƏKKÜR MƏKTUBU

*Xəzər Universiteti avqustun 2-7-də Təhsil Nazirliyinin sifarişi əsasında Lerik rayonunda təlim kursunu uğurla həyata keçirdiyinə görə Lerik Rayon Təhsil Şöbəsinin müdiri B.A. Nəsirov sentyabrın 6-da Təhsil Nazirliyinə və universitetə aşağıdakı təşəkkür məktubunu göndərib.*

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ CƏNAB MİKAYIL CABBAROVA**
**SURƏTİ: XƏZƏR UNİVERSİTETİNİN DİREKTORLAR VƏ QƏYYUMLAR ŞURASININ SƏDRİ CƏNAB HAMLET İSAXANLIYA**

**Hörmətli Mikayıl müəllim!**

Nəzərinizə çatdırmaq istəyirik ki, respublikamızda gedən təhsil islahatı çərçivəsində Təhsil Nazirliyinin sifarişi əsasında Xəzər Universiteti tərəfindən Lerik rayonunda avqustun 2-7-də təşkil edilən “İdarəetmədə qərarların verilməsi üçün təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi və monitorinq tədqiqatları nəticələrindən istifadə” mövzusunda təlim kursu uğurla həyata keçirilmişdir. Kursun məzmunu və treninq materiallarının təqdimatı kursa cəlb edilmiş təhsili idarə edən pedaqoji işçilər tərəfindən maraqla qarşılanmışdır.

Bu kursun məzmunu və onun aydın şəkildə şərhi təhsilin müasir tələblər baxımından nəticəyönümlü idarə edilməsinin təşkili üçün bizə əməli kömək edəcək. Belə bir layihənin həyata keçirilməsi ilə bağlı Sizə və onun təşkilatşılarına Lerik rayonunun təhsil işçiləri adından minnətdarlığımızı bildiririk.

*Dərin hörmət və ehtiramla,*
*Lerik Rayon Təhsil Şöbəsinin müdiri:*
*B.A.Nəsirov*

# UNİVERSİTET XƏBƏRLƏRİ

## 2013-2014-CÜ TƏDRİS İLİ: TƏLƏBƏ QƏBULU RƏQƏMLƏRDƏ

**İsaxan İsaxanlı,**
*Qəbul və tələbə şöbəsinin müdiri*



Bu il Xəzər Universitetinə 620 plan yerinə 28 ixtisas üzrə qəbul aparılıb. Birinci qrup üzrə 8 ixtisasa (neft-qaz mühəndisliyi; kompüter mühəndisliyi; kompüter elmləri; inşaat mühəndisliyi; riyaziyyat və informatika müəllimliyi; elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi, kimya mühəndisliyi; biotibbi texnologiya mühəndisliyi), ikinci qrup üzrə 9 ixtisasa (mühasibat uçotu və audit; maliyyə; iqtisadiyyat; menecment; marketinq; biznesin idarə edilməsi; beynəlxalq münasibətlər; coğrafiya müəllimliyi, regionşünaslıq), üçüncü qrup üzrə 8 ixtisasa (ingilis dili və ədəbiyyatı; ingilis dili müəllimliyi; tərcümə; Azərbaycan dili və ədəbiyyatı; Azərbaycan dili və ədəbiyyatı müəllimliyi; politologiya; ibtidai sinif müəllimliyi, tarix müəllimliyi); dördüncü qrup üzrə 3 ixtisasa (kimya müəllimliyi, biologiya müəllimliyi; psixologiya) ümumilikdə 478 tələbə qəbul olunub.

Qəbul, məlum olduğu kimi, iki turda aparılır; birinci turda boş qalan yerlər üçün müsabiqə yolu ilə ikinci tur elan olunur. Universitetimizə birinci turda 449, ikinci turda isə 29 nəfər qəbul olunmuşdur. Qəbul olunmuş 478 tələbədən 339 nəfəri Azərbaycan bölməsinin, 139 nəfəri isə rus bölməsinin tələbələridir. 26 tələbə dövlət sifarişi ilə qəbul edilib.

Qəbul imtahanlarında müəyyən bal həddindən yuxarı bal toplayan tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər barədə də məlumat vermək istəyirəm. Güzəştlər toplanmış ballara görə müxtəlifdir və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının hər il qəbuldan əvvəl plan yerlərini dərc etdiyi “Abituriyent” jurnalında onlar dəqiq göstərilir. Bu güzəştləri belə müəyyənləşdirmişik: 500-549 arası bal toplayanlara 25% , 550-599 arası bal toplayanlara 50%, 600-649 arası bal toplayanlara 75% güzəşt olunur. 650-dən yuxarı bal toplayan tələbələr isə təhsil haqqını ödəməkdən 100% azaddır. Bu il 24 tələbəmiz 500-dən yuxarı bal toplayıb. Onlardan 15 nəfəri Mühəndislik və tətbiqi elmlər (1-ci qrup), 8 nəfəri Humanitar və sosial elmlər (3-cü qrup), 1 nəfər isə Təhsil fakültəsinin tələbəsidir. Həmin tələbələrdən 6 nəfəri 600-dən çox balla qəbul olunub.

Qeyd edim ki, güzəştlər bütün təhsil müddəti ərzində tətbiq olunur. Lakin belə bir qayda da mövcuddur ki, güzəştə layiq görülən tələbələrdən kimsə təhsildə yaxşı nəticələr göstərməzsə, güzəştin ləğv olunması məsələsinə baxıla bilər. Universitetimizə qəbul olunan tələbələrə hər il payladığımız yaddaş kitabçasında bu barədə xəbərdarlıq edilir. Ancaq, adətən, yüksək balla qəbul olunan tələbələr təhsillərində yaxşı göstəricilərə nail olurlar.

Hər il sentyabrın 15-də universitetimizdə yeni tədris ilinin başlanması ilə əlaqədar açılış mərasimi keçirilir və yeni qəbul olunanlara tələbə bileti verilir. Bu il də 600-dən yuxarı balla qəbul olunan tələbələrə tələbə biletini Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı təqdim etdi.

Beləliklə, 2013-2014-cü tədris ilində universitetimizə 478 tələbə qəbul olunmuşdur ki, bu da əvvəlki illərlə müqayisədə ən yüksək rəqəmdir.

Bütün tələbələri təbrik edir, dərslərində uğurlar arzulayıram.

## İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONFRANSDA

Sentyabrın 5-6- da Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı professor İnqilab Əhmədov, həmin fakültənin doktorantı Nigar Muradxanlı, İqtisadiyyat və menecment departamentinin koordinatoru Ceyhun Məmmədov İqtisadi Əməkdaşlıq Təşkilatı (), İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu (İİETİ) və Ecomod Network təşkilatı tərəfindən İƏT-yə üzv ölkələr üçün Bakı Biznes Mərkəzində təşkil olunan “Enerji, regional inteqrasiya və sosial-iqtisadi İnkişaf" mövzusunda 1-ci Beynəlxalq Konfransda Xəzər Universitetini təmsil etmişlər.

İ. Əhmədov Azərbaycanda mədən sənayesinin idarə olunması, C. Məmmədov Xəzər hövzəsi ölkələrinin institutsional keyfiyyətinin qiymətləndirilməsi, N. Muradxanlı Avropanın enerji təchizatının diversifikasiyasında Xəzər regionunun qaz potensialı və Azərbaycanın mühüm rolu mövzularında çıxış etmişlər.

## HAMLET İSAXANLININ "HƏFTƏ İÇİ" QƏZETİNƏ MÜSAHİBƏSİ

"Həftə içi" online ictimai-siyasi qəzetinin 10 sentyabr 2013-cü il tarixli nömrəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Təhsilin keyfiyyətini artırmaq istəyiriksə, müəllimliyin nüfuzunu qaldırmalıyıq" sərlövhəli müsahibəsi dərc olunub. Müsahibəni bu linkdə oxuya bilərsiniz:

*http://haftachi.az/news.php?id=99591*(Müsahibə jurnalın 18-20-ci səhifələrində dərc olunur).

## ƏMƏKDAŞIMIZIN HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB ABŞ-DA ÇAP OLUNUB




Xəzər Universitetinin Coğrafiya və ətraf mühit araşdırmaları departamentinin müdiri, Hidrologiya və su təsərrüfatı üzrə fəlsəfə doktoru Rövşən Abbasov Kaliforniya Universitetində (ABŞ-ın Davis şəhəri) Fulbright proqramı üzrə təhsil aldığı zaman digər müəlliflərlə birgə "Uzunmüddətli asılılıq və dəniz səviyyəsinin proqnozu" adlı kitab yazmışdır. Kitab Springer nəşriyyatı tərəfindən çap olunmuşdur.

Əməkdaşımızı təbrik edir, elmi yaradıcılığında ona yeni uğurlar arzulayırıq.

## HƏMKARLAR TƏŞKİLATININ YARDIMI İLƏ

Builki məzuniyyət dövründə həmkarlar təşkilatının xətti ilə universitetin bir qrup əməkdaşı ailə üzvləri ilə birlikdə Nabranda istirahət etmiş, bir nəfər əməkdaşımız isə Bilgəh Kardioloji Sanatoriyasında müalicə olunmuşdur. Qurban Bayramı ilə əlaqədar olaraq iki əməkdaşımıza maddi yardım göstəriləcək. Yeni dərs ilində həmkarlar təşkilatı fəaliyyətini daha da genişləndirəcək.

# ELAN

Xəzər Universiteti aşağıda adları göstərilən fakültə və departamentlərə dekan və müdir vəzifələrini tutmaq üçün müsabiqə elan edir:

**1.İqtisadiyyat və Menecment departamentinin müdiri**
**2.Musiqi və İncəsənət departamentinin müdiri**
**3.Neft Mühəndisliyi departamentinin müdiri**
**4.Təhsil fakültəsinin dekanı**

Müsabiqə elan edilən yerlərə həm daxili, həm də xarici təşkilatlardan namizədlər müraciət edə bilərlər. Müraciət edən şəxslər sənədlərini həftənin bazar ertəsi və cümə günləri saat 10:00-dan 18:00-a qədər Magistratura, Doktorantura və Elmi İşlər Bölməsinə (otaq N 406) şəxsən təqdim etməlidirlər.

Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər tələb olunur:

- Ərizə (rektorun adına)
- Kadrlar uçotunun şəxsi vərəqəsi
- Tərcümeyi-hal (CV)
- Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri (notarial qaydada təsdiq olunmuş)
- Elmi və elmi-metodiki işlərinin siyahısı (müvafiq təşkilatın elmi katibi tərəfindən möhürlə təsdiq olunmuş)

Müsabiqəyə sənədlər elan dərc olunduğu tarixdən bir ay müddətində təqdim edilməlidir.

## LONDONDA TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

*Sentyabrın 18-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyində bu ölkədə təhsil alan tələbələrimizlə görüş keçirilmişdir*



Görüşdə səfirliyin əməkdaşı Vüsal Abdullayev çıxış edərək, yeni tədris ilinin başlanmasının ali məktəblərin, xüsusilə də birinci kurs tələbələrinin həyatında əhəmiyyətli hadisə olduğunu bildirmişdir. Britaniyanın təhsil sistemi haqqında tələbələri məlumatlandıran V.Abdullayev, univeristetlərdə Azərbaycan ilə bağlı keçirilən tədbirlər və layihələr haqqında ətraflı məlumat vermişdir.

Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumunun (ASAİF) sədri Ramin Həkimov təmsil etdiyi qurumun fəaliyyəti haqqında danışmışdır. Bildirmişdir ki, ASAİF-in əsas məqsədi xarici ölkələrdə təhsil alan gənclərin şəbəkələşmə prosesini gücləndirmək, onları azərbaycançılıq dəyərləri ətrafında daha sıx birləşdirmək, respublikamızın xaricdə təbliğ olunmasına daha yaxından cəlb etmək, eyni zamanda, informasiya mübadiləsində, təbliğat işinin interaktiv qurulmasında gənclərimizə kömək göstərməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı Heydər Mirzə ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlərdən və əldə olunan uğurlardan, dövlətin gənclərlə bağlı siyasətindən, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan danışmışdır.

Sonda tələbələrin sualları cavablandırılmışdır.

***Orxan İsmayılov,***
***AzərTAc-ın xüsusi müxbiri,***
***London***

## DƏRSLİKLƏRİN MÜƏLLİFLİK HÜQUQU TƏHSİL NAZİRLİYİNƏ VERİLİB

*Azərbaycanda dərslik siyasətinə dair yeni sənəd hazırlanır*

"Dərsliklər müəlliflər tərəfindən yazılır. Dərsliklərin qiymətləndirilməsi, çapı və məktəblərə çatdırılmasını Təhsil Nazirliyi həyata keçirir". Bunu təhsil nazirinin müavini Ceyhun Bayramov APA TV-yə müsahibəsində bildirib. Nazir müavini qeyd edib ki, dərslik siyasətinə dair sənəd hazırlanır: "Həmin sənəddə nazirliyin yanaşması öz əksini tapacaq və bu, payızda hazır olacaq".

C. Bayramovun sözlərinə görə, TN hesab edir ki, dərslik sifarişinə daha erkən başlanmalıdır. "Dərs ilinə az qalmış müəllimlər və şagirdlər dərsliklərə sahib olurlar. Hazırda bu praktika mövcuddur. Düşünürük ki, bu praktika dəyişməlidir. Bununla da yüksək səviyyəli dərsliklərə nail ola bilərik".

C. Bayramov onu da qeyd edib ki, yeni dərsliklərin hazırlanmasında TQDK-nın fikirləri nəzərə alınır: "Dərsliklər yenidən işləndikdə bütün məqamlar nəzərə alınacaq. Bununla bağlı TQDK ilə konstruktiv dialoq gedir. Bu da dərsliklərimizə öz müsbət təsirini göstərəcək".



Nazir müavini onu da vurğulayıb ki, bu il ilk dəfə TN yeni çap olunmuş dərsliklərin müəlliflik hüququna nail ola bildi: "Bundan əvvəl bu hüquq nəşriyyatlarda idi".

## NİZAMİ RAYONU TƏHSİL İŞÇİLƏRİNİN MÜŞAVİRƏSİ

Sentyabrın 12-də Nizami Rayon İcra Hakimiyyətində yeni dərs ilinin başlanması və 2012-2013-cü tədris ilinin yekunlarına həsr olunmuş ümumrayon müşavirəsi keçirildi. Müşavirəni giriş sözü ilə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov açaraq, salona toplaşanları salamladı. O, hesabat məruzəsi ilə çıxış etmək üçün sözü Rayon İcra Hakimiyyəti Başçısının müavini Gülnaz İsrafilovaya verdi. G. İsrafilova tədris ili ərzində qazanılmış uğurlar haqqında geniş məlumat verdi.

Müşavirədə 220 saylı məktəbin direktoru Almaz Ələsgərova, "Zəngi" liseyinin 695 bal toplamış məzunu Rəfiqə Rüstəmova, millət vəkilləri Sədaqət Vəliyeva, Flora Qasımova və Fəttah Heydərov, Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fiqumə Hüseynova, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Bakı Şəhər Təhsil İdarəsinin məsul əməkdaşı Firudin Babayev və digərləri çıxış edərək, əldə edilmiş nailiyyətlərdən və qarşıda duran vəzifələrdən danışdılar. Sonda "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi adını qazanmış 5 məktəbin, o cümlədən Xəzər Universiteti "Dünya" məktəbinin rəhbərlərinə və universitetlərə daxil olmuş məzunlara qiymətli hədiyyələr təqdim olundu.

Müşavirədə Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdilər.

## "İRƏLİ" NÖVBƏTİ PECHA KUCHA NİGHT BAKU "VOL 2-10 İL" KEÇİRDİ

Sentyabrın 18-də "10 il" kampaniyası çərçivəsində 28 Cinema və "Jaguar" enerji içkisinin dəstəyi ilə 28 Mall-da yerləşən 28 Cinema-da 350 nəfərin iştirakı ilə ikinci Pecha Kucha Night Baku "Vol 2-10 il" tədbiri küçirildi.

Tədbiri giriş sözü ilə açan layihənin Azərbaycan üzrə nümayəndəsi, "İRƏLİ" İctimai Birliyinin Təlim və Karyera Mərkəzinin rəhbəri Nihad Allahyarlı bildirdi ki, dünyada geniş populyarlıq qazanmış Pecha Kucha (PKN) təqdimatları Azərbaycanda ilk dəfə rəsmi razılığa əsasən "İRƏLİ" tərəfindən 2013-cü il aprelin 25-də "Hezz Club"da keçirilib.

Sonra 6 müxtəlif sahədə uğur qazanmış spikerlər: Rəşad Əliyev - İlkAddımlar.com saytının yaradıcısı və Xəzər İnternet İnstitutunun direktoru, Ramil Bağırov - "Finansist" jurnalının baş redaktoru, Rövşən Əkbərov - "Təbiət Elmləri" İctimai Birliyinin sədri, Cəsarət Valehli - fəlsəfə doktoru, TV ekspert, Rüstəm Həsənov - İnformasiya Texnologiyaları üzrə menecer və Əli Hacızadə - Hajizade Group şirkətinin rəhbəri çıxış etmişlər. Spikerlərin əldə etdikləri nailliyətlər haqqındakı məlumatları auditoriya tərəfindən böyük maraqla qarşılanıb.

"İRƏLİ" İctimai Birliyinin sədri Rauf Mərdiyev çıxışında qeyd edib ki, hər zaman yeniliklərə imza atan "İRƏLİ" dünyada yetərincə məşhur olan bu brendi də Azərbaycana gətirib və təqdimatlar gənclər tərəfindən böyük maraqla qarşılanıb. "İRƏLİ" sədri bundan sonra da davamlı olaraq bu təqdimatların keçiriləcəyini bildirib.

Qeyd edək ki, Pecha Kucha (yapon dilindən tərcümədə "söhbət etmək") 2003-cü ildə Yaponiyada başlanmış və qısa vaxt ərzində bütün dünyaya yayılmış təqdimat formatıdır. Hal-hazırda "Pecha Kucha" dünyanın 120-dən çox ölkəsinin 530-dan artıq şəhərində həyata keçirilir. Azərbaycan Pecha Kucha Night tədbirləri keçirən 171-ci ölkə, Bakı isə 535-ci şəhərdir.

## TECHKNOWLEDGE ŞİRKƏTİNİN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

Sentyabrın 19-da Xəzər Universitetində Techknowledge şirkətinin Türkiyə təmsilçiliyinin ölkə meneceri Altan universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova və Kitabxana informasiya mərkəzinin elektron informasiya xidmətləri bölməsinin müdiri Səbinə Əlimərdanova da iştirak etmişlər.

Techknowledge şirkəti Yaxın Şərqdə və Türkiyədə qabaqcıl elektron məlumat bazaları və elektron kitabxana modellərinin təchizatçısıdır. A. Gürsel təklif etdikləri məlumat bazaları və xidmətlər haqqında ətraflı məlumat vermişdir. Sonra şirkət nümayəndəsi universitetin kitabxanası ilə tanış olmuş, əməkdaşlarla fikir mübadiəsi etmişdir. Sonda universitetimizin professor-müəllim heyəti və tələbələri üçün təklif olunan məlumat bazalarından müvəqqəti pulsuz istifadə imkanı yaradılacağı barədə razılıq əldə olunmuşdur.

# HƏFTƏ İÇİ
*online ictimai - siyasi qəzet*

**HAMLET İSAXANLI: "TƏHSİLİN KEYFİYYƏTİNİ ARTIRMAQ İSTƏYİRİKSƏ, MÜƏLLİMLİYİN NÜFUZUNU QALDIRMALIYIQ"**



*2012-2013-cü tədris ili başa çatıb. Artıq orta ixtisas və ali məktəblərə qəbul imtahanları başa çatıb və qəbul olanların qeydiyyatı prosesi yekunlaşıb. Bəs, ötən tədris ilinin, eləcə də qəbul imtahanlarının nəticələri necə qiymətləndirilir? Ümumiyyətlə, təhsil sistemindəki çatışmazlıqlar nədən ibarətdir və bu sahədə hansı təkmilləşmə işi aparılmalıdır?*

*Müsahibimiz Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır. H.İsaxanlı sözügedən məsələlərlə bağlı maraqlı fikirlər səsləndirib, bəzi problemlərə toxunub və bir sıra təkliflər irəli sürüb.*

**- Hamlet müəllim, ötən ilki qəbul imtahanlarının nəticələrini necə qiymətləndirirsiniz?**

- Əvvəlki illərlə müqayisədə elə də böyük fərqlər müşahidə edilmədi. Müəyyən texniki dəyişikliklər oldu. Həmçinin qəbul imtahanları zamanı bəzi qruplarda, xüsusən IV qrupda xeyli boş yerlər qalıb. Düşünürəm ki, bu prosesdə anlaşılmazlıq var. Əvvəla, prinsipcə, qəbul imtahanlarının mənası, məqsədi seçmək deməkdir, seçim aparmaqdır. Məsələn, ali məktəbə qəbul üçün 100 min abituriyent sənəd verib və qəbul planında tələb olunur ki, onlardan 20 mini seçilərək universitetlərə verilsin. Bu halda qəbul balı mühüm rol oynamamalıdır. Çünki qəbul planı ali məktəblər və hökumət tərəfindən formalaşdırılır. Tutaq ki, bu il 180 nəfər biologiya müəllimliyi ixtisasına qəbul aparılması tələb olunur. Həmin 180 abituriyent mütləq seçilib ali məktəblərə göndərilməlidir, çünki bu, cəmiyyətin, universitetin və hökumətin istəyidir. Daha abituriyentin neçə bal yığmasının əhəmiyyəti yoxdur. Deyək ki, biologiya müəllimliyi ixtisasına 500 nəfər sənəd veribsə, ilk 180 nəfər seçilib ali məktəblərə verilməlidir. Üstəlik, testin xüsusiyyətindən asılı olaraq ballar yuxarı da, aşağı da ola bilər. Mən elə test hazırlayaram ki, hamı yuxarı və ya aşağı bal toplaya bilər. Ona görə də, test burda elə də mühüm rol oynamır və o, sadəcə seçim etmək üçündür. Əksər abituriyentlərin ali məktəbə qəbul olmaq istəyinin olmasına baxmayaraq, dediyim kimi, düzgün seçim prinsipi olmadığı üçün bu anlaşılmazlıqla baş verir. Nəticədə, uyğunsuzluq ucbatından ali məktəblərdə boş yer qalır. Odur ki, qəbul imtahanlarında əsas problem kimi bunu görürəm, qalan hər şey prinsipcə əvvəlki illərə bənzəyir.

**- Keçid ballarının aşağı salınmasına necə baxırsız?**

- Hamı bilir ki, orta məktəblərimizdə təhsilin keyfiyyəti yaxşı deyil. Bunu təhsil naziri, Məleykə xanım, hökumət və ziyalılarımız da bilir. Amma bununla bərabər keyfiyyət aşağıdır deyə uşaqları oxutmamaq düzgün alternativ deyil. Yenə də deyirəm, 100 min nəfər sənəd

verən yerə 20 min lazımdırsa, deməli, həmin sayda olan abituriyenti oxutmaq lazımdır. Seçim də dediyim kimi aparılmalıdır. Xatırladım ki, dünyada "testologiya" deyilən elm var. Adətən, orta və ya ali məktəblər üçün testləri hazırlayanda təxminən sualların 80 faizi sadə və aydın olmalıdır ki, cavab tapmaqda çətinlik olmasın. Qalan 20 faiz suallar isə uşaqları fərqləndirmək üçün orta və yuxarı səviyyədə hazırlanır. Ona görə də, testin tutulması ilə alınan qiymətlərin arasında birbaşa əlaqə var. Test mütləq bir mexanizm deyil. Məhz bu səbəbə görə dünyanın tanınmış universitetlərinin xeyli hissəsində heç testlərə baxmırlar. Orda uşaqlarla üzbəüz söhbət edilir. Abituriyentin seçdiyi sahədə biliyindən başqa daha hansı bacarıqlarının olduğu üzə çıxarılır. Uşaqlarla söhbətdə onların liderlik, esse yazmaq qabiliyyətləri, mühakimələri öyrənilir, idman, musiqi, incəsənət uğurlarının olub-olmadığı müəyyənləşdirilir. Oksford, Kembric, Harvard kimi universitetlərdə belə seçim edilir, abituriyentlərin bilik və bacarıqları, şəxsiyyəti bu yolla öyrənilir, ümumi nəticəyə gələrək qərar çıxarılır. Beləliklə, bəzən testdə yuxarı bal alan digər imtahanlardan, müsahibədən yaxşı keçmir, bir sıra aşağı test balı toplayanlar isə digər mühüm keyfiyyətləri olduğu üçün ali məktəbə qəbul edilir. Hesab edirəm ki, bizdə də belə məsələlərə fikir vermək lazımdır. Balların aşağı olması seçim edilməsində həlledici olmamalıdır. İstər abituriyent 70 bal toplasın, əgər yer ayrılıbsa, onu ali məktəbə göndərmək lazımdır. Uşaq oxuyacaqmı, yaxud ali məktəb təhsil verə biləcəkmi, bax, bu proses abituriyent və ali məktəblərin problemidir. Bizim təcrübəmizdə olub ki, 370 bal toplayan 570 balla qəbul olandan yaxşı təhsil alıb və yaxşı işə düzəlib. Çünki mühit, şərait başqa olub. Biri imkanlı olub, digəri kasıbdır. Biri kənddə , o biri isə şəhərdə təhsil alıb. Birinin repetitoru olub, amma o birinin olmayıb. Ancaq ali məktəbdə tələbə yeni stimul alır, həvəsə düşür, içində yatmış enerji oyana bilər. Hesab edirəm ki, bu məsələ elm və təhsil işçiləri arasında müzakirə olunmalıdır və olunacaq.

**- Bəs, orta məktəbin buraxılış imtahanları ilə ali məktəbə qəbul imtahanlarının birləşdirilməsinə necə baxırsız?**

- Hesab edirəm ki, birləşdirmək lazımdır, çünki abituriyentləri iki dəfə imtahan etmə mənasız vaxt itkisidir. İmtahanı bir dəfə etmək lazımdır! Həmin imtahandan sonra isə "sadəcə" müsabiqə yolu ilə seçim turu olmalıdır. Əlbəttə, qəbulda uşağın istəyi nəzərə alınmalıdır.

**- Bu ildən attestatında "2" olan abituriyentlərin də ali məktəbə qəbul olmasına şərait yaradıldı...**

- Mən həmişə bu maneənin aradan qaldırılmasının tərəfdarı olmuşam və indi də bu fikirdəyəm. Tutaq ki, bir şagird ədəbiyyatı, tarixi, astronomiyanı çox gözəl, ancaq riyaziyyatı zəif bilir. Həmin gənc riyaziyyatçı yox, tarixçi olmaq istəyir. Təsəvvür edin, bütün imtahanlardan 4 və ya 5 qiymət alıb, ancaq riyaziyyatdan 2 aldığı üçün onun qarşısını kəsirlər. Niyə? Digər tərəfdən, elə uşaq olur ki, bütün imtahanlardan 3 qiymət alır. İndi sual olunur, hansı uşaq biliklidir? Heç şübhəsiz, birinci! Ona görə də, mən nazirliyin bu barədə qərarını müsbət qiymətləndirirəm.

**- Yeri gəlmişkən, bu il attestatında "2" qiymət olan abituriyent 559 bal toplayıb, ancaq qızıl medal alan isə 140 bal yığıb...**

- Mənim dediyim də budur. Bir şagird təbiət elmlərini çox yaxşı bilir, ancaq tarixi yox. Belə demək mümkünsə, onun beyni məntiq üzərində qurulub. Bəs, belə bir insanın ali təhsil almasına niyə imkan verməyək? Və yaxud, rəssamdı, musiqiçidi, ancaq bir-iki şey alınmır. Belə insanlara imkan vermək lazımdır ki, onlar sevdikləri və qabiliyyətli olduqları sənət ilə məşğul olsunlar.

**- Bir neçə ildir ki, ali təhsil sistemində adambaşına maliyyələşmə mexanizmi tətbiq olunur. Başqa sözlə, xeyli abituriyent dövlət vəsaiti hesabına istər özəl, istərsə də dövlət ali məktəblərində təhsil almaq hüququ əldə edib. Bu mexanizmin tətbiqindən sonra Xəzər Universitetini seçənlərin sayında hansı dəyişiklik olub?**

- Bu mexanizmin təbliği və tətbiqi üçün hələ

10 il əvvəl mən də çox səy göstərmişəm. Bir sıra yüksək səviyyəli qurumlar və görüşlərdə bu yeniliyi təklif etmişəm. Bir az gec də olsa, tətbiq olunan yeni mexanizm çox gözəl ideyadır. Çünki bu mexanizm tələbələrə əlavə seçim imkanları verir, həmçinin universitetlər arasında rəqabət yaradır. Amma bu mexanizmdə bəzi böyük qüsurlar var. O ki qaldı universitetə olan marağa, bu il bizdə mühəndislik fakültəsinə çox savadlı uşaqlar gəlib. Onların bir hissəsi dövlət sifarişi ilə qəbul olub və əksəriyyəti də 600-dən yuxarı bal toplayıblar. Qeyd edim ki, ölkə üçün mühəndislər, müəllimlər və həkimlər çox vacibdir. Bu üç kateqoriyada yer alanlar çox savadlı yetişməlidirlər. (Əlbətdə, demirəm ki, digər sahələrdə savad vacib deyil...) Təəssüf ki, müəllimlik bizim ölkədə hələlik prestij peşə deyil. Təhsilin keyfiyyətini artırmaq istəyiriksə, müəllimliyin nüfuzunu qaldırmalıyıq. Ona görə də, gərək çox bal toplayan abituriyentlər, Finlandiyada olduğu kimi, müəllim olmaq istəsin. O zaman təhsildəki problemlərimizi, qismən də olsa, həll etmiş olarıq.

**- Dediniz ki, yeni maliyyələşmə mexanizmində bəzi qüsurlar var. O qüsurlar nədən ibarətdir?**

- Məsələn, mən istəyirəm ki, psixologiya ixtisası üzrə dövlət sifarişinə 5 yer ayıraq, 15 yerə isə abituriyentlər özləri qəbul olsunlar. Deyirlər ki, belə olmaz, ya yerin hamısını dövlət sifarişinə sal, ya da heç birini. Bu mexanizmdə bəzi dəyişikliyə ehtiyac var və müzakirə edilməlidir.

**- Hamlet müəllim, gənclər özəl universitetlərdə pulsuz təhsil ala bilirlərmi? Təbii ki, burda dövlət sifarişi nəzərdə tutulmur.**

- Xəzər Universitetindən söhbət gedirsə, bəli! Hər il Azərbaycanın bölgələrində bütün imtahan qrupları üzrə olimpiada keçiririk. Həmin olimpiadanın qalibləri Xəzər Universitetində təhsil haqqından azad olunurlar. Həmçinin, olimpiadada qalib olmayan, ancaq yaxşı nəticə göstərənlərə böyük güzəştlər edirik. Digər tərəfdən, qəbul imtahanlarında çox yüksək bal toplayan və dövlət sifarişini yazmayan abituriyentlər də təhsil haqqından azaddırlar. Nisbətən yaxşı bal yığanlara da ciddi güzəştlər edirik. Yəni, yüksək qabiliyyətli uşaqlar Xəzər Universitetində pulsuz, yaxşı qabiliyyətlilər isə güzəştlə təhsil ala bilirlər və belə gəncləri məmnuniyyətlə gözləyirik.

**- Özəl ali təhsil müəssisələri əlavə dəyər vergisindən azad olunublar. Bu güzəşt Xəzər Universitetində ödənişlərin aşağı salınmasına təsir etdimi?**

- Əvvəla, belə bir addımı müsbət qiymətləndirirəm.Təhsil müəssisəsi yalnız təhsillə məşğuldur və nəyə görə ƏDV verməlidir. Təbii ki, başqa vergilər verilməlidir. Ancaq ƏDV-nin ləğvinin təhsil haqlarının aşağı salınmasına təsiri yoxdur. Qeyd edim ki, bəzi ali məktəblər tələbələrdən təhsil haqqı ilə yanaşı ƏDV alırdı. Ancaq Xəzər Universiteti tələbələrdən vergiyə görə əlavə pul almayıb. Tələbənin verdiyi təhsil haqqının içərisindən ƏDV vermişik. Ona görə ƏDV-nin ləğvi ödənişlərə yox, universitetin laboratoriyasına, kitabxanasına, müəllimlərin maaşına təsir edəcək.

**- Yeri gəlmişkən, tez-tez belə fikir də hallanır ki, Azərbaycanda təhsil haqları digər ölkələrə nisbətən çoxdur. Həmçinin, verilən təhsil ödənişə adekvat deyil.**

- Bəli, bəzi yerdə adekvat deyil, bəzi yerdə ödəniş çox, keyfiyyət aşağıdır. Bəzi yerdə isə əksinə, təhsilin səviyyəsi yüksək, ödəniş azdır. Ancaq bəzi ali məktəblər iddia edir ki, bizim təhsil haqqımız daha yuxarı olmalıdır. Hər halda, hər şey vəziyyətlə ölçülür. Yəni ali məktəblər elə şərait yaratmağa çalışırlar ki, bir tərəfdən gənclər ödənişi edə bilsin və boş yer qalmasın, digər tərəfdən, təhsil haqları həddindən artıq aşağı olmasın.Əks halda, həmin ali məktəb yaşaya bilməz. Bütün hallarda hər şey könüllüdür və məcburi heç nə yoxdur.

***Atif Sarıxanlı,***
*"Həftə içi"*
*Online ictimai-siyasi qəzet*
*10. 09. 2013*

## AMEC-DƏN "XƏZƏR"Ə MƏKTUB

**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar Şurasının sədri professor H.İsaxanlıya**
**Surəti: Karyera mərkəzinin koordinatoru Ü.Hüseynovaya**

**Hörmətli professor H.İsaxanlı!**

Nəzərinizə çatdırırıq ki, 2013-cü il iyul ayında AMEC MMC şirkətinin Stipendiant Proqramına start verilmişdir. Proqram bakalavr pilləsinin 2-ci tədris ilini müvəffəqiyyətlə bitirən seçilmiş fakultələrin tələbələrinə şamil edilir.

Şirkətimizlə Xəzər Universiteti arasında yüksək səviyyəli əməkdaşlığımızın davamı olaraq, AMEC MMC Stipendiant Proqramı tələbələrinizə təqdim olunmuşdur. Proqram Xəzər Universitetinin tələbələri arasında böyük maraq doğurmuşdur, belə ki, 8 (səkkiz) tələbə proqramda iştirak üçün müraciət etmişdir.

İkipilləli seçim prosesi nəticəsində müraciət etmiş Xəzər Universiteti tələbələrindən 2 (iki) namizəd seçilmişdir.

Seçilmiş namizədlər avqust ayı ərzində şirkətimizin istehsalat prosesində iştirak edərək, şirkətimizin fəaliyyəti haqqında bir sıra təqdimat hazırladılar. 2 il davam edən Stipendiant Proqramı çərçivəsində proqramın iştirakçıları AMEC MMC-nin təlim və tədris proqramlarına və sosial tədbirlərə dəvət olunacaqlar. Proqramın uğurla başa çatdırılması halında onlar AMEC MMC-nin məzunların işə qəbulu proqramında iştirak edəcəklər. Seçim prosesini müvəffəqiyyətlə bitirmiş namizədlər daimi işlə təmin olunacaqlar.

AMEC MMC-nin rəhbərliyi Xəzər Universiteti ilə əməkdaşlığı yüksək qiymətləndirir və ikitərəfli münasibətlərin inkişafını dəstəkləyir.

AMEC MMC rəhbərliyi adından Xəzər Universitetinin rəhbərliyinə və əməkdaşlarına dəstəyinizə görə dərin təşəkkürümüzü bildiririk.

Xəzər Universitetinin AMEC MMC Stipendiant Proqramının iştirakçıları olan tələbələri aşağıdakılardır:

1.Dibirov Samid Yusif oğlu
2.Mustafayev Nəriman Şahin oğlu

***Hörmətlə,***
***Piter Vord***
***Baş Menecer***
***17 sentyabr 2013-cü il***

## ƏMƏKDAŞIMIZ GLOBAL DAĞ ƏMƏKDAŞLIĞININ ZİRVƏ GÖRÜŞÜNDƏ

Xəzər Universitetinin Ətraf Mühitin Tədqiqi Mərkəzinin rəhbəri (Environmental Research Center) Rövşən Abbasov sentyabrın 17-20-də Türkiyənin Ərzurum şəhərində Global Dağ Əməkdaşlığının (Mountain Partnership) 4-cü zirvə görüşündə iştirak etmişdir. Ətraf Mühitin Tədqiqi Mərkəzi Dağ Əməkdaşlığında ölkəmizi təmsil edən yeganə qurumdur. Bu görüşdə 52 dövlət nümayəndəsi, 200-dən artıq universitet, QHT (NGO) və elmi-tədqiqat institutlarının nümayəndələri iştirak etmişlər.

Görüşdə R. Abbasov "Iqlim dəyişmələri riskinin həssas dağ icmaları tərəfindən su və daşqın idarəolunma riskinə tətbiqi" (Integrating Climate Change Risks into Water and Flood Management by Vulnerable Mountainous Communities in the Greater Caucasus Region) mövzusunda çıxış etmişdir. Tədbirdə, həmçinin, Ətraf Mühitin Tədqiqi Mərkəzinin UNEP-in gələcəkdə yaradacağı "Qafqaz Tədqiqat Şəbəkəsi"nə (Caucasus Science Network) üzvlüyü də müzakirə olunmuş və bu barədə razılıq əldə edilmişdir.

## XƏZƏR UNİVERSİTETİNIN AZƏRBAYCANDA İLK DƏFƏ KEÇİRDIYI TƏLİMLƏR



*Xəzər Universiteti ilə Təhsil Nazirliyi arasında "İdarəetməyə dair qərarların verilməsi üçün şagirdlərin qiymətləndirmə nəticələrindən və monitorinq tədqiqatlarından istifadə" üzrə təlim kursu layihəsinin həyata keçirilməsi Haqqında imzalanmış müqaviləyə (Müqavilə № 4394AZ-CQ-192) əsasən 2013-cü il avqustun 12-dən etibarən Azərbaycanın rayon və şəhərlərində təhsil rəhbərləri üçün təlimlər başlamış və uğurla davam etməktədir.*



*Layihə ilə əlaqədar universitetimizdə bir il ərzində gedən ciddi hazırlıq prosesinin nəticəsi olaraq Azərbaycanda ilk dəfə həyata keçirilən bu təlimlərlə bağlı mütəmadi olaraq əməkdaşlarımızı, yurnalımız və veb-saytımız vasitəsilə ictimaiyyəti məlumatlandırırıq.*

*Layihənin həyata keçirildiyi hər bir rayon və şəhər təhsil şöbələrindən, həmçinin müdavimlərdən universitetin ünvanına təşəkkür məktubları gəlməktədir.*

*Aşağıda müdavimlərdən aldığımız təklif və rəyləri dərc edirik. (Mötərizədəki rəqəmlər təklifin neçə nəfər tərəfindən verildiyini bildirir).*

### *TƏKLİFLƏR*

- Kursun təhsili idarə edənlərlə yanaşı, fənn müəllimlərinə də şamil olunması (5).
- Keçirilən hər bir modulun müstəqil bir təlim kursu olması (4).
- Beynəlxalq qiymətləndirmə proqramlarında iştirak etməklə yanaşı, nəticələr və s. haqqında məlumatlandırılmamağımız neqativ hal kimi araşdırılmalıdır (5).
- Müəllimin mövqeyi ilə əlaqəli ictimai rəyin doğru formalaşması dövlət siyasətinə çevrilməlidir (5).
- Ali məktəblərə TQDK-nın apardığı imtahanların nəticələrinin bu səpkidə təhlil olunması.
- Məktəblərdə formativ qiymətləndirmə jurnallarının ləğv olunması.
- Belə təlimlərin tez-tez kecirilməsi (8).
- Bu tələblər əsasında test nümunələrinin hazırlanıb, məktəblərin istifadəsinə verilməsi.
- Təlimin müddətinin daha uzun olması (5).
- Belə keyfiyyətli təlimlərin İKT ilə bağlı keçirilməsini (2).
- Ayrı-ayrı fənlər üzrə ixtisasartırma kurslarının da bu təlim qədər keyfiyyətli və bölgələrdə keçirilməs (2).
- Təlim materialları əsasında hazırlanmış "Paylama materialı"nda istifadə olunmuş termin və bəzi əcnəbi dillərdən alınma sözlərin izahının da materiala əlavə olunması.
- Qiymətləndirmə Azərbaycanda yeni sahə olduğu üçün bu cür kursların mütəmadi keçirilməsi.
- Qiymətləndirməyə aid tapşırıqlar hazırlanarkən, idraki fəallığı inkişaf etdirən məsələlərin nəzərə alınması.
- Qiymətləndirmə kurslarına müəllimlərin də cəlb olunması.
- Qiymətləndirmənin bütün mərhələlərini əhatə edən ixtisasartırma kursularının bütün fənn müəllimləri üçün təşkil

olunması.

- Təhsil sistemimizdə Finlandiya təcrübəsindən istifadə edilməsi.
- Qiymətləndirmə ilə bağlı metodik vəsaitlərin hazırlanması
- Qiymətləndirmə ilə bağlı uğur əldə etmək üçün şəbəkəşəkilli fəaliyyət mexanizminin işə salınması.
- Məktəb psixoloqlarının umumilikdə zəif fəaliyyətləri müşahidə edilir və onların da fəal və ardıcıl olaraq təlimlərə cəlb edilməsi zəruridir.
- Məktəblərə idarəçilik baxımından müstəqillik verilsə, çox şey yaxşılığa doğru dəyişə bilər.
- **Xəzər Universitetinin bölgələrdə xüsusi təlim mərkəzləri yaradılarsa, bu kimi təlimlər daha səmərəli keçər.**

***RƏYLƏR***

- Kursun formal xarakterdə olacağını düşünürdüm, əksi ilə qarşılaşdım (3).
- Kurs gözlədiyimdən daha çox səmərəli keçdi (10).
- Kursda iştirak edənə qədər beynəlxalq qiymətləndirmə proqramları haqqında ümumilikdə, orada iştirak etdiyimiz haqqında isə heç bir məlumatım yox idi (7).
- Kursda öyrəndiklərim mənə tədris ilində məktəbimizdə yeni ideyaları həyata keçirtməyə stimul verdi (6).
- Kurs məndə belə bir təəssürat yaratdı ki, biz şagirdlərimizin biliyinə çox əhəmiyyət versək də, onlarda bacarıqları formalaşdırmırıq (10).
- Kursda iştirak etməyim builki tədris ilində məktəbdaxili imtahanlarla əlaqəli məndə yeni ideyaların yaranmasına kömək etdi (3).
- Bu kurs sayəsində məktəbdaxili qiymətləndirmə mərhələləri, tapşırıqların meyarları və dəyərləndirilməsi haqqında ciddi problemlərimiz olduğunu öyrəndim (3).
- Kurs nəticəsində beynəlxalq təhsil təcrübəsində böyük əhəmiyyəti olan idraki bacarıqların formalaşdırılmasına müəllimlərimizin az əhəmiyyət verdiyini başa düşdüm (6).
- Kursun həm təchizati, həm də keçirilməsi səviyyəsini alqışlayıram.
- Təlimçinin nitqi rəvan, özü savadlı, müdavimlərə qarşı diqqətlidir.
- Təlimçi mövzuları aydın tərzdə şərh edir, dərsdə tələbkarlığı yüksək səviyyədədir.
- Kursun materialları izah edilərkən, əsl pedaqoqu gördüm.
- Beynəlxalq qiymətləndirmə haqqında biliklər əldə etdim.
- Əsasən, debatlara çox yer verildi.
- Kurs çox maraqlı, detallarla zəngin keçdi.
- Beynəlxalq qiymətləndirmə mənim diqqətimi xüsusi cəlb etdi (2).
- **Qiymətləndirmə sahəsində öyrəndiyim bütün biliklərə görə Xəzər Universitetinin rəhbərliyinə təşəkkür edirəm** (3).

## XƏZƏR UNİVERSİTETİNİN KEÇİRDİYİ TƏLİM KURSU İLƏ ƏLAQƏDAR TƏŞƏKKÜR MƏKTUBU

**Azərbaycan Respublikasının Təhsil Naziri cənab Mikayıl Cabbarova**
**Surəti: Xəzər Universiteti Direktorlar Və Qəyyumlar Şurasının Sədri professor Hamlet İsaxanlıya**

**Hörmətli Mikayıl müəllim!**

Məlumat üçün Sizə bildirmək istəyirəm ki, təhsil sistemimizdə aparılan islahatlar çərçivəsində idarəedicilikdə nəticəyönümlüyün tətbiqi ilə bağlı Təhsil Nazirliyinin sifarişi və dəstəyi ilə Xəzər Universiteti tərəfindən "İdarəetmədə qərarların verilməsi üçün təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi və monitorinq tədqiqatları nəticələrindən istifadə" mövzusunda 09-14.09. 2013-cü il tarixdə keçirilən kursda rayonun bir qrup təhsili idarəetmə işçiləri iştirak etmişdir. Kursun məzmunu və onun təqdim edilməsi üsulu müdavimlər tərəfindən böyük maraqla qarşılanmışdır. Hesab edirik ki, bu təlimlərdə öyrəndiklərimizdən gələcək fəaliyyətimizdə səmərəli şəkildə faydalana biləcəyik. Təhsilimizdə bu istiqamətdə gerçəkləşdirilən layihələrə görə Beyləqan rayon təhsil işçiləri adından Sizə və bu layihənin icraçılarına dərin minnətdarlığımızı bildiririk.

*Hörmətlə,*
*Beyləqan Rayon Təhsil Şöbəsinin müdiri:*
*T.M.Sadıqov*
*14. 09. 2013*

***ARİF MƏLİKOV – 80***

## “MƏHƏBBƏT ƏFSANƏSİ” VƏ YA ƏFSANƏYƏ DÖNMÜŞ ÖMÜR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Xalq Artisti, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Arif Məlikova Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə “Heydər Əliyev” ordeni təqdim etmişdir.*



O, çoxlarından fərqli olaraq şöhrətə gedən yola çox gənc yaşlarında çıxdı. 26 yaşında ikən yazdığı “Məhəbbət əfsanəsi” ilə minlərin, milyonların gözə görünməyən məhəbbətini qazandı. Amma bu uğur heç də onu arxayın salmadı. Gecəsini -gündüzünə qataraq daha böyük inam və inadla yazıb - yaratdı. Nə yazdısa ürəyinin səsi, qəlbinin diktəsi ilə yazdı. Bir an da olsun belə sənətə ötəri həvəs kimi yanaşmadı. Bəlkə də onu 80 yaşa gətirib çıxaran da, xalqa sevdirən də içindəki düzlük, Üzeyir Hacıbəyli ənənələrinə sadiqlik, Azərbaycana, onun milli-mənəvi, mədəni sərvətlərinə olan sonsuz sevgisidir. Belə sevgiləri qazanmaq isə yalnız və yalnız Arif Məlikov kimi dühalara nəsib olur.

Müstəqil Azərbaycanın və SSRİ-nin Xalq Artisti, Dövlət Mükafatı laureatı, “İstiqlal” ordenli, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının müdiri, professor Arif Məlikovun sentyabrın 13-də 80 yaşı tamam olur.

A.Məlikov öz simfoniyaları ilə XX əsrin sonu-XXI əsrin əvvəlində milli simfonik musiqimizin əsas inkişaf istiqamətini müəyyən etmiş, bu sahədə aparıcı rol oynamış bəstəkardır. Sənətdə ilk addımlarından o, musiqi aləmində bir ulduz kimi parlamış, sahibi olduğu fitri istedadını sonrakı illərdə cilalayıb kamilləşdirdiyi peşəkarlığı ilə tamamlayaraq yeni zirvələrə yüksəlmişdir.

O, belə möhtəşəm əsərləri - “Metamorfozlar”, Nazim Hikmətin sözlərinə 2 vokal silsilə, xalq çalğı alətləri orkestri üçün əsərlər, 7 nömrəli simfoniya, “Azərbaycan” balladası, 8 nömrəli simfoniya və digər teatr tamaşalarına yazdığı musiqiləri ilə çoxdan əbədiyaşarlıq qazanmışdır.





A.Məlikov, eyni zamanda, ən gözəl Azərbaycan filmlərinə musiqi yazmış bəstəkardır. Onların sırasında “Sehrli xalat”, “Axırıncı aşırım”, “Ulduzlar sönmür”, “Qərib cinlər diyarında” və başqaları-

nı xüsusi qeyd etmək olar.

Görkəmli bəstəkarın xalqımız tərəfindən böyük rəğbətlə qarşılanan, sevilən əsərləri eyni həyəcan və coşqu ilə dünyanın hər bir ölkəsində dinlənilir, səhnələşdirilir. Arif Məlikov musiqisi ilə Azərbaycan musiqi sənəti dünyanın bir çox ölkəsində təmsil olunaraq rəğbət qazanır. Buna misal olaraq bəstəkarın hələ gənc yaşlarında yazdığı, dünyanın 60-dan çox ölkəsinin səhnələrini gəzən "Məhəbbət



əfsanəsi" baletini göstərmək olar.

Məşhur bəstəkar Dmitri Şostakoviç "Məhəbbət əfsanəsi" baleti haqqında dəyərli fikirlər söyləyərək demişdir: "Arif Məlikov istedadlı bəstəkardır. Musiqisi əsl professionaldır. Onun əsərində dərin musiqi dramaturgiyası, daxili inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri vardır. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib".

Əgər iri janrlarda bəstəkar alovlu bir natiq kimi geniş kütlələrə, milyonlara müraciət edərək ümumbəşəri problemlərdən, hamımızı narahat edən həyat məsələlərindən söz açırsa, miniatür əsərlərində - romanslar, fortepiano pyeslərində o, qəlbinin dərinliklərində gizlədiyi ən məhrəm duyğuları, lirik düşüncələri ilə dinləyicilərin ürəyinə yol tapır.

XX əsrin məktəblərinə, cərəyan və təmayüllərinə gözəl bələd olan, müasir kompozisiya texnikasına mükəmməl yiyələnən bəstəkar ən yeni yazı üsullarından sərbəst istifadə edir. Lakin müəllimi Qara Qarayev kimi, o da əvvələ, ən yeni vasitələrin məqsədə çevrilməsinə heç vaxt yol vermir, ikincisi isə - heç vaxt möhkəm milli zəmindən, xalq musiqisinin sağlam köklərindən, həmişəyaşar qaynaqlardan ayrılmır. Vaxtilə təhsilini Asəf Zeynallı adına məktəbin xalq çalğı alətləri şöbəsindən başlayan, Əhməd Bakıxanov, Mansur Mansurov kimi sənətkarlardan tar ifaçılığının sirlərini öyrənən, öz barmaqlarını tara toxunduraraq, muğamların, xalq musiqisi nümunələrinin cövhərini qəlbinə hopduran A.Məlikov bəstəkar kimi püxtələşib yetişdikdən sonra öz əsərlərində bu milli musiqi incilərinə yeni həyat vermişdir.

Onun bir bəstəkar kimi qazandığı nailiyyətlər özlüyündə təkcə musiqimizdə deyil, ümumilikdə, milli-mədəni tərəqqi naminə göstərilən xidmətlər hesab edilməlidir.

A.Məlikov həm də təcrübəli müəllim kimi böyük nüfuz sahibidir. Onun sinfində təhsil alan onlarla istedadlı gənc bəstəkar öz müəllimindən sənətin sirlərini, kompozisiyanın əsaslarını öyrənməklə yanaşı, bəlkə bundan daha vacib olan keyfiyyətləri - Vətənə, xalqa məhəbbət hissini, milli-mənəvi sərvətləri göz bəbəyi kimi qorumaq, klassik ənənələrimizi yaşadıb inkişaf etdirmək məsuliyyətini də əxz edir, onun himayəsi altında böyük həyat məktəbi keçir.

Böyük bəstəkar həm də bir vətəndaş kimi Azərbaycanımızın bütün çətin məqamlarında sözünü deməyi, vətəndaşlıq mövqeyini ortaya qoymağı bacarmışdır. Xalqımızın ağır günündə o, qələmə sarılaraq 20 Yanvar faciəsini əks etdirən "İttiham edirəm" kitabını yazmışdır. Kitabda bu hadisələrdə günahı olan insanları cəsarətlə ifşa edərək, xalqımızın ağrı-acılarını dünyaya çatdırmışdır.



Mənə elə gəlir ki, musiqimizin 80 illiyini qeyd etməyə hazırlaşan canlı klassiki Arif Məlikovun sənət yaşını heç kəs bilmir. Onun yaşı musiqimizin yaşı qədər qədim və gəncdir. "Məhəbbət əfsanəsi" ilə şöhrəti əfsanələşmiş bu bənzərsiz sənətkara çoxsaylı oxucularımız adından yeni-yeni yaradıcılıq uğurları, möhkəm cansağlığı arzulayırıq.

***Abdulla Suvar,***
***AzərTAc–ın müxbiri***

## BÖYÜK BRİTANİYA YOLLARINDA SÜRÜCÜSÜZ AVTOMOBİLLƏR ŞÜTÜYƏCƏK

*2013-cü ilin sonunda Böyük Britaniyanın ictimai yollarında robotlaşdırılmış sürücüsüz avtomobillər testdən keçiriləcək*

İndiyə qədər belə testlər yalnız qapalı ərazilərdə aparılmışdır.

Birinci testlərdə Oksford mütəxəssislərinin məxsusi hazırladıqları "Nissan Leaf" elektromobili iştirak edəcəkdir. O, magistralda verici və videokameraların köməyi ilə hərəkət edəcəkdir.

Güman edilir ki, belə maşınlar insanların idarə etdikləri adi avtomobillərlə müqayisədə daha təhlükəsiz və səmərəli nəqliyyat vasitəsi olacaqdır.

Test zamanı "Nissan" elektromobilinin kabinəsində təhlükəsizlik tədbiri kimi sürücü oturacaqdır.

## AĞILLI QƏLƏM SƏHVLƏRİ DÜZƏLDİR

*Almaniyada əl ilə yazılmış mətnlərdəki səhvləri aşkarlayan və istifadəçini bu barədə xəbərdar edən qələm ixtira olunmuşdur*

İlk baxışda adi diyircəkli qələmdən fərqlənməyən bu qurğunun layihəsi "Lernstift" şirkəti tərəfindən hazırlanmışdır.

Ağıllı qurğu müxtəlif hərflərin yazılması zamanı peronun hərəkətini müəyyənləşdirən və normadan kənara çıxma halları baş verdikdə vibro-siqnal vasitəsilə istifadəçiyə xəbərdarlıq edən xüsusi verici ilə təchiz olunmuşdur.

Bu barədə Britaniyanın "Telegraph" qəzeti məlumat yaymışdır.

Qurğu, ilk növbədə, orfoqrafiyanı yenicə mənimsəməyə başlayan kiçikyaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur.

Lakin yüksək texnologiyalı yeni mexanizm adətən mətnləri kompyuterdə yığan və ümidini yalnız düzgün yazılışın yoxlanması vasitələrinə bağlayan daha böyük yaşlı istifadəçilərin də işinə yaraya bilər. Yeni qələmin neçəyə olacağı və nə vaxt satışa çıxarılacağı hələlik məlum deyildir.

## YAPONİYA ŞİRKƏTİ DƏNİZ YOSUNLARINDAN UCUZ BİOYANACAQ İSTEHSAL ETMƏYİ PLANLAŞDIRIR

*Yaponiyanın tanınmış IHI şirkəti dəniz yosunlarından aviasiya üçün bioyanacağın sənaye istehsalına başlanması barədə qərar qəbul etmişdir*

Bu, hazırda dənli bitkilərdən alınan yanacaqdan on dəfə ucuz başa gələcəkdir. "Nikkey" qəzetinin yazdığına görə, yeni növ yanacağın istehsalı üçün bazis texnologiyası artıq hazırdır və şirkət müvafiq müəssisələri 2018-ci ildə Cənub-Şərqi Asiyada və Avstraliyada işə salmağı planlaşdırır.

Neftdən alınan yanacağın qiyməti dayanmadan artır. Mütəxəssislərin hesablamalarına görə, 2000-ci ildən başlayaraq, aviasiya benzini ildə təqribən 14 faiz bahalaşır. Hazırda aviadaşımalara çəkilən xərclərin 40 faizi məhz yanacağın payına düşür. Bu gedişlə aviayanacağa tələbat və bununla birlikdə qiymətlər daha da artacaqdır. 2020-ci ildə dünyada kommersiya təyyarələrinin sayının indikinə nisbətən iki dəfə artaraq 35 minə çatması gözlənilir. Bu da öz növbəsində bitkilərdən ucuz yanacaq alınmasına marağı artırır.

Hazırda bioyanacaq istehsalı üçün qarğıdalıdan və şəkər qamışından istifadə edilir. Bu səbəbdən də son vaxtlar həmin məhsulların da qiyməti xeyli qalxmışdır. Belə bir şəraitdə bioyanacağın yosunlardan alınması problemin həllinə mühüm təsir göstərə bilər. Çünki bu, ərzaq təhlükəsizliyi ilə bağlı da heç bir problem yaratmır.

IHI şirkəti gələcəkdə yosunlardan avtomobil benzini istehsalını da planlaşdırır. Şirkətin hesablamalarına görə, bu yanacağın qlobal bazar həcmi 2020-ci ildə 800 milyard yen (8 milyard dollardan çox) təşkil edəcəkdir.

*Vüqar Ağayev,*
*AzərTAc-ın xüsusi müxbiri*
*Tokio*

## BİOLOQLAR KÖKLƏRİN UZANMA PROSESİNİ 3D FORMATDA TƏQDİM ETMİŞLƏR

*Böyük Britaniyanın Dandi Universitetinin alimləri bitkilərin kök sisteminin formalaşması prosesinin göstərildiyi videogörüntünü təqdim etmişlər*




Bu kadrları əldə etmək üçün tədqiqatçılar xüsusi şəffaf sahə və lazer optik sistem hazırlamışlar.

AMEA-dan AzərTAc-a bildirmişlər ki, bu barədə New Scientist veb saytı “Optics Express” jurnalında yerləşdirilmiş məqaləyə istinadən məlumat verir.

Dandi və Ceyms Hatton universitetlərinin əməkdaşları birgə videoyazı əldə etməklə yanaşı, optik tomoqramm da yaratmışlar. Tədqiqatçılar lazer sistemi vasitəsilə təcrübi nümunələri skan edərək, tərkibi əvvəlki sınaqlar zamanı müəyyənləşdirilmiş şəffaf mühitdə kök sisteminin üçölçülü modellərini almışlar.

Lazer vasitəsilə skan etmək zərərsiz olduğuna görə, bitkilərin yerdəyişməsini tələb etmir və nisbətən az vaxt sərf olunur, onu dəfələrlə təkrarlamaq olur və videoçarxda göstərildiyi kimi, bunun hesabına tomoqramların uzunmüddətli ardıcıllığını almaq mümkündür. Müşahidələrin davametmə müddəti 18 saata çatmış, lakin bu yaranmış zaman məhdudiyyəti metodikanın hansısa bir çatışmazlığı ilə bağlı deyil, uzanan köklərin onlara yönəldilmiş kameranın görmə dairəsindən çıxması ilə əlaqədar olmuşdur.

Metodikanın müəlliflərinə görə, üçölçülü optik tomoqrafiya köklərin artmasının öyrənilməsinin mövcud üsulları sahəsində böyük üstünlüklərə malikdir. Bitkinin qazılıb çıxarılmasından fərqli olaraq, o bitkini zədələmir, rentgen texnologiyaları ilə müqayisədə isə nəzərəçarpacaq dərəcədə ucuz başa gəlir. Bu üstünlüklərdən əlavə alimlər ciddi çatışmazlıqların olduğunu da qeyd edirlər. Belə ki, torpağı əvəz etmək üçün hazırlanmış şəffaf gel bəzi təcrübələrin nəticələrini təhrif edə bilər.

## ARXEOLOQLAR ÇİNDƏ ƏN QƏDİM YAZI FORMASI TAPMIŞLAR

*Arxeoloqlar Çinin şərqində qazıntılar zamanı indiyədək məlum olmayan primitiv yazı forması tapılması barədə məlumat vermişlər*

Alimlərin hesablamalarına görə, yazının təxminən 5 min il yaşı var və alimlərin ən qədim sayılan əvvəlki yerli tapıntılarından 1400 yaş böyükdür.

Bir sıra mütəxəssislərin fikrincə, tapıntı dünyada ən qədim yazı forması ola bilər.

Yazı nümunələrində sözlərdən və hərflərdən istifadə olunmur, simvollu semantika tətbiq edilir. Tapıntı Çin dilinin yaranması tarixinə aydınlıq gətirə bilər.

Hazırda 3600 il tarixi olan ən qədim Çin yazılarını Şan sülaləsinə aid edirlər.

## ALİMLƏR ƏL İLƏ TOXUNDUQDA İŞIQLANAN “ELEKTRON DƏRİ” YARATMIŞLAR

*Alimlər əl ilə toxunduqda işıqlanan “elektron dəri” yaratmışlar. Hər hansı əşyanın dövrəsinə dolamaq üçün kifayət qədər elastik olan bu materialdan divar kağızlarını əvəz edən interaktiv ekranlar yaradılmasında, yaxud nəbzi və qan təzyiqini ölçmək üçün sarğılar hazırlanmasında istifadə edilə bilər*

“Nature Materials” jurnalında dərc edilmiş məqalədə göstərilir ki, üç il bundan əvvəl Berklidəki (ABŞ) Kaliforniya Universitetinin alimləri Əli Caveyin rəhbərliyi ilə süni “elektron dəri” yaratmışlar. O vaxt mühəndislər güman edirdilər ki, bu materialdan robotlar və protezlər yaradılmasında istifadə edilə bilər. İndi onun tətbiq sahəsi genişlənmişdir. Məsələn, işıqlanan “elektron dəri”dən sensor ekranlı divar kağızları, yaxud insanın qan təzyiqinin və nəbzinin dəyişmələrini müşahidə etməyə imkan verən xüsusi sarğılar düzəltmək olar. Eksperimental nümunələrin ayırdetmə qabiliyyəti 16x16 pikseldir. Dərini sıxan yerdə bu nümunələr işıqlanır. İşıqlanmanın parlaqlıq dərəcəsi materialı sıxma gücündən asılıdır.

Alimlər gələcəkdə temperatura və işığa həssas olan yeni elektron dəri yaratmağı planlaşdırırlar. Cavey və onun həmkarları bu sahədə işləyən yeganə qrup deyildir. Məsələn, toxunmaya həssas “elektron dəri” yaratmaq üzərində Stenford Universitetinin bir qrup mühəndisi də işləyir, lakin onların yaratdığı “dəri” işıqlanmır.

# "ARŞIN MAL ALAN" OPERETTASI LOS-ANCELESİ FƏTH ETDİ

*Sentyabrın 8-də dünya kinosunun paytaxtı Los-Anceles səhnəsində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin məşhur "Arşın mal alan" operettasının premyerası olmuşdur*



Operettanın Amerika tamaşaçısının qəlbini fəth edəcəyi şübhə doğurmurdu. Tamaşaya qədər rejissor Maykl Şnakın rəhbərliyi altında aktyor truppası bir neçə ay gərgin məşqlər etmişdir. Məşqlər zamanı çətinlik yaradan isə ariyaların Azərbaycan dilində oxunmasına hazırlıq olmuşdur. Aktyorlar tələffüzün ideal səviyyədə olması üçün çox çalışmışlar.

Ariyaların sözlərini, onların mənasını öyrənməyə çox vaxt sərf etdiyini bildirən Əsgər rolunun ifaçısı Ceyms Cudd demişdir: "Onları çalışdıqca daha dəqiq tələffüz etmək istəyirdim. Bugünkü səviyyəyə çatmaq üçün biz böyük yol keçdik. Orijinalda bir çox şeyləri saxladıq, amma həm də əlavələr etdik, axı bu əsərin 100 yaşı vardır".

Gülçöhrə rolunun ifaçısı Aşa Lindsey 7 il əvvəl bu əsəri səhnələşdirəndə, o dövr Azərbaycan qadınları, İslam dini və təbii ki, xalqımızın mədəniyyəti haqqında çox şey öyrəndiyini bildirmişdir. O demişdir: "Hazırda mənim çoxlu azərbaycanlı dostlarım var. Hətta mən özüm bu qeyri-adi ölkə haqqında çox şey danışa bilərəm. Qəhrəmanımın nə istədiyini yaxşı bilirəm, əgər Gülçöhrə indiki dövrdə yaşasaydı, çox cəsur və mərd olardı".

Əsəri Amerika tamaşaçısına böyük ustalıqla təqdim edən rejissor Maykl Şnak demişdir ki, amerikalıların ənənələrə öz yanaşması vardır. ABŞ-da böyüməkdə olan nəsil də yenilikləri qəbul etməyə hazırdır. Azərbaycan həm də ona görə maraqlıdır ki, o vaxtlar bu müsəlman ölkəsinə Qərbin təsiri güclü idi. Yüz il bundan əvvəl Üzeyir Hacıbəyli bu əsərini neft maqnatı Hacı Zeynalabdin Tağıyevin köməyi ilə bütün dünyaya təqdim etmişdir. Simvolik olaraq isə 100 ildən sonra dahi Ü.Hacıbəylinin bu əsəri ABŞ-da dünya enerji ehtiyatları bazarlarında öz sözünü demiş Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dəstəyi ilə səhnələşdirilir. Tamaşanın təşkilində, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun da rolu böyükdür.




Bu əsəri mənimsəmək istəyən ermənilər 1937-ci ildə məhz Los-Ancelesdə "Arşın mal alan" müziklini yaradaraq, onu erməni əsəri kimi təqdim etmişdilər.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu

Nəsimi Ağayev bildirmişdir ki, Kaliforniyada 1,5 milyondan çox erməni yaşayır, onların əksəriyyəti isə Los-Ancelesdə məskunlaşmışdır. Baş konsul demişdir: "Erməni lobbisi bizə qarşı güclü mübarizə aparır. Onların təsirini azaltmaq üçün biz Azərbaycan haqqında həqiqətləri Amerika cəmiyyətinə çatdırmalıyıq və bunu da edirik. Bu işdə ən yaxşı vasitə isə Azərbaycanın zəngin mədəni irsini təbliğ etməkdir".

Los-Ancelesin ən məşhur konsert zallarından olan Doroti Çendler Pavilyonunun tamaşa başlamamışdan əvvəl tam dolması premyeranın uğurla keçəcəyindən xəbər verirdi. Üç min tamaşaçı iki saat ərzində musiqi və yumorla müşayiət olunan bu sevgi əhvalatının sonunu gözləyirdi. Tamaşanı heyranlıqla izləyən insanların üzlərində müxtəlif ifadələri hiss etmək çətin deyildi. Kimi Şərq musiqisindən zövq alır, kimi sevgililərə görə həyəcan keçirir, kimi də Azərbaycanın milli geyimlərinə heyran qalmışdı. Amma sonda təəssürat eyni idi: ifaçıları hamı bir nəfər kimi ayaq üstə alqışlayırdı.

Tamaşadan sonra zalı tərk edən tamaşaçılar hələ də səhnədə gördüklərini müzakirə edirdilər. Əminliklə demək olar ki, indiyədək Azərbaycan haqqında az da olsa eşidənlər, bundan sonra bu kiçik Şərq ölkəsinə əsl maraq göstərməyə başlamışdılar. Əsərin tamaşaçılarda yaratdığı düşüncələr, hisslər o qədər güclü idi ki, onlar gördüklərini furşetdə davam etdirirdilər.

Los-Anceles sakini xanım Kalma Blumber: "Bu, fantastikdir. Gözəl musiqi, qeyri-adi geyimlər, çox maraqlı əhvalat. Mən özüm üçün Azərbaycan, onun tarixi haqqında çox şeyi kəşf etdim, öyrəndim. Bu, əsl



sensasiyadır".

Avstriyanın Los-Ancelesdəki konsulu xanım Liliana Popova: "Möhtəşəm, valehedici musiqi idi. Mənim qardaşım pianoçudur. O, Bakıda simfonik orkestrlə çalışıb və mənim bununla bağlı çox xatirələrim var. Bu gün isə mən çox xoşbəxtəm. Bu axşamkı tamaşa mənə çox böyük təəssüratlar bəxş etdi".

Los-Anceles sakini Cim Kerkman: "Bu həqiqətən də bizə Şərqin gözəl dünyasına qapı açan əlamətdar hadisədir".

"Arşın mal alan" Los-Ancelesi fəth etdi. Bunu isə heç də hər əsər edə bilməz. Çünki Los-Anceles həm də Hollivud hesab olunur. Hollivudu isə təəccübləndirmək elə də asan deyildir.

***AzərTAc***

## "ARŞIN MAL ALAN" ABŞ MƏTBUATINDA

*"Huffington Post" qəzeti "Arşın mal alan" operettası haqqında məqalə dərc etmişdir*

THE HUFFINGTON POST
THE INTERNET NEWSPAPER: NEWS BLOGS VIDEO COMMUNITY

ABŞ-da nəşr olunan nüfuzlu "Huffington Post" qəzetində sentyabrın 7-də Los-Ancelesdə nümayiş etdirilmiş "Arşın mal alan" operettası barədə məqalə dərc edilmişdir. Məqalənin müəllifi "Nyu-York Tayms" və "Los-Anceles Tayms" qəzetlərinin mədəniyyət üzrə tənqidçisi Hoyt Hilsmandır. Tamaşada şəxsən iştirak edən müəllif məqaləsində Azərbaycanın zəngin tarixə malik olduğunu, SSRİ dağıldıqdan sonra isə sürətli müasirləşmə dövrünə qədəm qoyaraq, enerji ixracı və ticarət mərkəzinə çevrildiyini qeyd etmişdir.

H.Hilsman 1913-cü ildə ilk dəfə səhnələşdirilmiş "Arşın mal alan" operettasının Los-Ancelesdə nümayiş etdirilməsini Azərbaycanın mütərəqqi və dünyəvi ənənələrinin davamı kimi qiymətləndirmişdir. Tamaşanın bütün ifaçılarının yüksək peşəkarlığını vurğulayan müəllif "Arşın mal alan"ın musiqisinin füsunkarlığını və İslam dünyasının ilk operettası olmasını xüsusi vurğulamışdır. O, həmçinin operettanın mövzusunun olduqca mütərəqqi olduğunu, köhnəlmiş ənənələrə qarşı və qadın hüquqları uğrunda mübarizəni özündə ehtiva etdiyini bildirmişdir.

Məqalə ilə aşağıdakı linkdə tanış olmaq olar: *http://www.huffingtonpost.com/hoyt-hilsman/anazerbaijani operatta-a_b_3894592.html*

***Yusif Babanlı,***
***AzərTAc-ın xüsusi müxbiri,***
***Vaşinqton***
11.09. 2013

## MONTENEQRODA HÜSEYN CAVİDİN BÜSTÜ UCALDILMIŞDIR

*Sentyabrın 11-də Monteneqronun paytaxtı Podqoritsa şəhərinin tarixi "Kral parkı"nda Azərbaycan xalqının görkəmli şair və dramaturqu Hüseyn Cavidin büstünün və şəhərin mərkəz hissəsində "Bakı" küçəsinin təntənəli açılış mərasimi keçirilmişdir*



Azərbaycanın Monteneqrodakı diplomatik nümayəndəliyindən AzərTAc-a bildirmişlər ki, tədbirdə Monteneqronun Baş naziri Milo Cukanoviç və Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyev, dövlət və hökumət rəsmiləri, diplomatik korpusun nümayəndələri, ölkənin tanınmış ziyalıları, mədəniyyət və incəsənət xadimləri, KİV nümayəndələri iştirak etmişlər.

Mərasimdə E.Əfəndiyev Monteneqronun mədəniyyət naziri Branislav Miçunoviç, Podqoritsa şəhərinin meri Miomir Muqoşa və başqaları çıxış etmişlər.

Daha sonra parkda Azərbaycan-Monteneqro dostluq əlaqələrinin sülhün tərənnümü olan dəfnə ağacı əkilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin birbaşa səyləri nəticəsində cənazəsi qürbətdən, uzaq Sibirdən Vətənə gətirilərək, doğulduğu torpaqda dəfn edilən Hüseyn Cavidin xatirəsinin Monteneqroda əbədiləşdirilməsi və büstünün ucaldılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir.

Parkın girişində Azərbaycanın və Monteneqronun gerblərinin altında hər iki dildə "Kral parkı"nda yenidənqurma və abadlaşdırma işləri Azərbaycan və Monteneqro xalqlarının dostluq əlaqələrinin rəmzi kimi Prezident İlham Əliyevin təşəbbüsü, Azərbaycan hökumətinin və Podqoritsa şəhər meriyasının dəstəyi ilə həyata keçirilmişdir" sözləri yazılmış lövhələr vurulmuşdur.

Parkın inşası zamanı Azərbaycanın və Monteneqronun milli memarlıq üslublarından geniş istifadə olunmuşdur.

## YENİ ƏLYAZMA

*ABŞ kitabxanasından qədim Azərbaycan əlyazması tapılıb*

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Əlyazmalar İnstitutu ABŞ-ın Miçiqan Universiteti kitabxanasından XVI-XVII əsr Osmanlı şairlərinin seçmə şeirlər toplusundan ibarət Azərbaycanda köçürülmüş əlyazma cüngün – antologiyanın surətini əldə edib.

AMEA Əlyazmalar İnstitutunun direktor əvəzi Paşa Kərimov Lent.az-a açıqlamasında bildirib ki, 250 səhifədən ibarət, gözəl nəstəliq xətti ilə köçürülmüş bu cüngdə Osmanlı şairləri Baqi, Sirri, Ülvi, Ümidi, Növi, Xəyali, Şəmi və başqalarının şeirləri toplanıb.

Əlyazma orta əsrlərdə Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin öyrənilməsi baxımından böyük maraq doğurur.

## QARA QARAYEV ADINA MƏRKƏZİ İNCƏSƏNƏT MƏKTƏBİ YARADILACAQ



*Azərbaycan Respublikasının Nazirlər Kabineti Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin yaradılması haqqında qərar qəbul etmişdir*

AzərTAc xəbər verir ki, qərara əsasən, Mərkəzi İncəsənət Məktəbi Bakı şəhərindəki Qara Qarayev adına 8 nömrəli 11 illik musiqi məktəbinin bazasında yaradılacaqdır.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin maliyyələşdirilməsi dövlət büdcəsinin Bakı şəhəri üzrə yerli xərclərinin "Təhsil" bölməsində nəzərdə tutulmuş müvafiq xərcləri hesabına həyata keçiriləcəkdir.

## ZİYANI XEYRİNDƏN ÇOX OLAN Wİ-Fİ

*İnternet olan hər evdə kabelsiz bağlantı (Wi-Fi) standart halını alıb. Wi-Fi kəşf olunanda çoxlarımız bunu sevinclə qarşılasaq da, alimlərin araşdırmaları göstərdi ki, simsiz rabitə vasitəsinin üstün tərəfləri qədər, cana ziyanı da varmış.*

*Buna görə də bir sıra Avropa ölkələrində ictimai təşkilatlar hökumətdən tələb edirlər ki, ən çox uşaqlara təsir edən wi-fi-nin bağçalarda və orta məktəblərdə istifadəsini məhdudlaşdırsın.*

*Məsələn, İngiltərədə Müəllimlər Dərnəyi hökumətə müraciət edərək məktəblərdən wi-fi-nin yığışdırılmasını tələb edib. Hətta sözügedən ölkədə bəzi məktəb rəhbərləri kabelsiz internet bağlantısını yığışdırıblar. Kanadada da bir sıra orta məktəblər simsiz rabitədən imtina edib.*

### *UŞAQLAR RADİASİYANI DAHA ÇOX QƏBUL EDIR*

Wi-Fi İkinci dünya müharibəsi zamanı düşmənin uçan obyektlərini təyin etmək üçün quraşdırılan və güclü şüalanma verən radar operatorları ilə müqayisə edilir və insan orqanizminə vurduğu ziyana görə eyniləşdirilir. Ümumiyyətlə, mikrodalğalı radiasiyadan ilk dəfə 2-ci dünya müharibəsi zamanı istifadə edilib.

Alimlərin hesablamalarına görə, 3 yaşından 16 yaşına qədər uşaqlar əvvəlcə uşaq bağçasında, daha sonra isə məktəbdə 10 min saat simsiz rabitə vasitələrinin şüalarına məruz qalırlar.

Britaniyanın “Sunday Mirror” qəzetinin mütəxəssislərə istinadən yazdığına görə, uşaqların beyinləri kiçik olduğu və onların beyinlərində su az olduğu üçün mikrodalğalar onlara sürətli və tez təsir edir: “Uşaqlar radiasiyanı daha çox qəbul etmək xüsusiyyətinə malik olduğu üçün bu şüaların beyin şişi yaratma riski daha böyükdür. Məsələn, mobil telefonun uşaq olan otaqda iki dəqiqə zəng çalması uşaq beyininin funksiyasını 1 saatlıq dəyişir”.

### *XƏRÇƏNGƏ APARAN YOL*

Alimlərin araşdırmalarına görə, 5 yaşlı uşağın bədəninə ətrafdakı elektromaqnit dalğaları böyüklərdən 60 faiz çox hopur. Hətta şüalanma səbəbi ilə uşaqların sümük iliyi xəstəliyinə tutulması da böyüklərdən 10 dəfə çoxdur. Beynəlxalq Xərçəng Xəstəliyi Araşdırmaları Agentliyi də elan edib ki, mobil rabitə vasitələrində istifadə olunan radiotezliklər insan bədəni üçün xərçəng xəstəliyini əmələ gətirən potensial vasitədir.

Müsahibimiz Fəridə Bağırova 14 yaşlı dayısı oğlunun sümük iliyi xərçəngindən dünyasını dəyişdiyini bildirdi: “Rəhmətlik bütün günü yemədən içmədən İnternetin qarşısında oturudu. Gün ərzində demək olar ki, bir dəfə yemək yeyirdi, internetin qarşısında oturmaqdan iştahasızlıq yaranmışdı və uşaq gündən-günə arıqlamağa başladı. Türkiyəyə apardıq. Dedilər ki, İnternetin qarşısında çox oturduğundan elektromaqnit dalğaları sümük iliyi xəstəliyinə səbəb olub”.

### *YUXUSUZLUQ, MİQREN, ÜRƏK DÖYÜNTÜSÜ...*

İKT mütəxəssisi Ramil Qafarovun sözlərinə görə, wi-fi insan sağlamlığı üçün potensial təhlükədir: “Buna görə də gecələr yatanda, yaxud gündüzlər istifadə edilməyəndə modemi söndürmək məsləhətdir. Çünki istifadə edilməsə belə, açıq qalan modem evdə elektromaqnit dalğaların yaranmasına səbəb olur. Alimlərin aprdığı araşdırmalara görə, wi-fi yuxu problemi, ürək döyünməsi, miqren, ümumi zəiflik yaradır. Hətta bu xəstəliklərin hamısının bir arada olmasına da səbəb olur. Elektromaqnit dalğaları insan toxumalarına zərər verir, hüceyrələrdə DNT pozğunluğuna da yol aça bilir”.

Terapevt Məlahət Abbasova da bildirdi ki, İnternetdən çox istifadə edənlərdə ümumi zəiflik və qan azlığı yaranır: “Elektromaqnit şüaları şişlərin yaranmasına, yaddaş pozğunluğuna və beyinə zədə vuracaq digər nəticələrə də gətirib çıxarır. Bu şüalar insanın təbii enerji sahəsinə ziyan vurur, stressə səbəb olur, ürək bulanması, baş ağrısı, yorğunluq yaradır. Xüsusilə hamilə qadınların wi-fi olan yerdən uzaq durması məsləhətdir”.

### *NƏ ETMƏLİ?*

Həkimlər wi-fi-dən az zərər çəkmək üçün aşağıdakıları məsləhət görür:

1) wi-fi aparatını insanın daha çox vaxt keçirdiyi yerlərdən (çarpayı, stol, divan) ən azı 1 metr uzağa qoymalı;

2) Böyük həcmdə faylları və videoları yalnız internetin sürəti yaxşı olduğu zaman yükləyin (əks halda, işləmək üçün əlavə güc sərf edən aparat daha çox şüa buraxır);

3) Modemdən istifadə etmədikdə söndürün, əks halda, o yenə də şüa yayacaq;

4) Yatdığınız otaqda modem qoymayın.

Onu da qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı yayım gücü aşağı olan wi-fi-nin insan orqanizmi üçün riskli olmadığını deyir.

*Lalə Musaqızı,*
*QHTxeber.az*
*26. 08. 2013*

# OWEN WISTER'S *THE VIRGINIAN* AND SEVERAL IMPLICATIONS CONCERNING THE REVIEW OF THE NOVEL

***By Jamala I. Mammadova***
***Khazar University, Azerbaijan***




## Who is Owen Wister?

The famous American writer Owen Wister was born on 14 July 1861 "into a distinguished East Coast family going back to an important pro-slavery drafter of the Constitution." Wister's father, a professional physician, put his son into exclusive St Paul's preparatory school (1873-8) and Wister had a successful academic and social career at Harvard. Here, Wister built a lifelong friendship with Theodore Roosevelt.

The Literary History of American West reports that "when the U.S. Census of 1980 officially declared that a line of frontier settlements could no longer be identified; that is emigration had erased the frontier, and it was then, while the frontier faded, that four young Americans attempted to look back and discover what the West had been-even what it might still signify."

Those four Americans were Roosevelt, Wister, Turner and Remington. In Turner and Roosevelt's writings the literature of the frontier played a significant role. These four researchers experienced and examined American culture with their works and left it for the future generation. At the age of 32, Wister, a graduate of Harvard Law School, gave up the idea of practicing law and devoted himself to writing.

## To whom was the book dedicated?

*The Virginian* was written in April 1902, and Owen Wister dedicated this famous novel to his close friend Theodore Roosevelt. The original dedication to *The Virginian*, written in 1902, reads as follows:

*To Theodore Roosevelt: Some of these pages you have seen, some you have praised, one stands new written because you blamed it; and all, my dear critic, beg leave to remind you of their author's changeless admiration.*

On June 2, 1902, a few weeks after the novel appeared in print, the President wrote to his friend:

*I did not think it would be possible for you to combine those short stories into a novel without the loss of charm and power. Yet I think you have greatly increased both their charm and power as you have made the combination. It is a remarkable novel. If I were not President, and therefore unable to be quoted, I should like nothing better than to write a review of it. I have read it all through with absorbed interest and have found myself forward to taking up the book again all through the time I have been at work. I do not know when I have read in any book, new or old, a better chapter than Superstition Trail.*

Owen Wister's *The Virginian* soon became popular, and in two years 300,000 copies had been sold. Today it is the only one of Wister's books still in print.

## The Virginian

The novel consists of thirty six short stories. The chapters of the novel consist of new events, including the lifestyle of a cowboy, a cattle thieving scene, love scenes, acquaintance or conversations with Molly, and the growing conflict of the Virginian with Trampas.

Before Molly's arrival Wister tried to introduce his brave, brutal, rough cowboy hero in first person. However, the inner side of Wister's cowboy is revealed with the arrival of another leading character, a female named Molly Stark Wood.

While reading the novel, we seldom encounter cattle driving or hard work scenes. Wister's cowboy character is distinct from other cowboy characters of that time. An ordinary cowboy is brutal; usually he does not take women seriously. However, in *The*

*Virginian* we see that love is superior for the hero.

In *The Virginian*, we see the positive influence of a woman on a man. For example, Molly had a very positive influence on the Virginian; she tried to change him, and she attempted to make him obey his conscience, including displaying good manners. Toward the end, we see a cowboy for whom love and family values are superior. Moreover, the dignity for Wister's hero stands above all. This is proven when, on the very day of his wedding, the Virginian goes out for a shoot-out with Trampas, begging Molly to forgive him if he does not fulfill his plea.

In his novel, Wister does not forget the religion issue per se. In chapter twenty one, *In a State of Sin,* he creates a scene of cowboys attending church. Yet, through the short chapters and by means of the plot, Wister informs the reader about the growing conflict between Trampas and the Virginian.

In the novel there is a Man vs. Man conflict between Trampas and the Virginian, which makes the plot more suspenseful. *With Malice Aforethought* is the rising action of the plot, where in the thirty fifth chapter, it reaches its climax. In the very scene, the Virginian leaves his sweetheart back on the day of their marriage and goes into a man to man confrontation with Trampas. That part of the story is the most exciting scene both in the novel and in the movie.

Wister's hero thinks about equality of all human beings. That theme is first visible in the chapter twelve, *Quality and Equality*, where Wister expresses through the hero's tongue that "*All men are born equal"* (*The Virginian*, page 98). Most probably that was the manifestation of Wister's thinking about both sexes equally, and one may link this to his law practice. In connection, he also mentioned The Declaration of Independence (July 4, 1776) through the tongue of his cowboy Virginian during a conversation with Molly:

*-"I used to have to learn about the Declaration of Independence. I hated books and truck when I was a kid."*

*-Molly:-"But you don't any more."*

*-Virginian:-"No I cert'nly don't." (page 99)*

Generally in the plot, the masculine hegemony dominates. However, the quality of braveness is also applied to the feminine hero in the novel.

At the end, the Virginian kills Trampas, and the resolution of the plot is the marriage; the Virginian and Molly depart into the mountains. In the last chapter, *At Dunbarton*, Wister describes both characters as happy, and the Virginian continuously repeats to his lover,

*-"Better than my dreams."*

The novel ends with the mutual understanding and inequality of sexes.

In his novel, Owen Wister successfully created an ideal, but unreal, character of a cowboy. He is brave, courageous, human, and intellectual. He dreams of his sweetheart staying in his own home forever, and he becomes familiar with and interested in literature thanks to Molly.

Wister successfully created another main character, Molly, who had a real influence over the Virginian. She changed him and his interests in life. However, her influence on the Virginian was limited to a certain extent. For example, she could not stop the Virginian in the shoot-out with his opponent Trampas. In that very scene, Wister raised masculinity, dignity and hegemony of male superiority to its peak.

Wister's cowboy fights for real values in the novel, and that makes the cowboy the ideal hero of the novel. *The Virginian* consists of some moral scenes and an optimistic struggle in life which in its turn inspires the reader to come to the end with more optimistic conclusions.

Owen Wister's novel *The Virginian* is slightly different from reality as a cowboy, but he is an ideal man who fights for real values in a realistic (though a bit silly) way, making him an unforgettable and victorious hero both at the time of writing and today. Some can call him silly, some brutal, but as we dig deeper we see that even though the conditions he lived in made him a bit brutal, Wister's cowboy is a conscientious, soft-hearted and respectful ideal man.

Wister used his gift to create an ideal man with intelligence and distinguished masculinity; the author also compared East and West and successfully reflected the syntax and sentence structure of the both in the narrative.

In *The Virginian*, male hegemony is superior, masculinity is unrivaled, and femininity is ideal, but surrendered to masculinity. The novel ends with disparity between masculinity and femininity.

## BIBLIOGRAPHY


*A Literary History of the American West*, sponsored by The Western Literature Association, Texas Christian University Press Fort Worth, 1987

HASLAM Gerald W., ed.. *Western Writing,* University of New Mexico Press, Albuquerque, 1974, 156p.

SLOTKIN, Richard. *Gunfighter Nation. The Myth of The Frontier in Twentieth-Century America*, New York, 1992, 850p.

WHITE, Edward G. *The Eastern Establishment and the Western Experience, The West of Frederic Remington, Theodore Roosevelt, and Owen Wister.* Yale University Press, 1968, 238p.

WISTER, Owen. *The Virginian*. Introduction and Notes by Robert Shulman, Oxford University Press, New York 1998, Reissued 2009. 351p

WHITE, John I. "The Virginian, Montana". *The Magazine of Western History*, Vol.16, No. 4 Autumn, 1966

# SƏDAQƏT QƏHRƏMANOVA: "AZƏRBAYCAN AİLƏSİ STRATEGİYASI" HAZIRLANIB"

*"Azərbaycan Ailəsi Strategiyası" hazırlanıb və müvafiq dövlət qurumlarına göndərilib. İlin sonuna və ya gələn ilin əvvəlinə kimi bu sənəd qəbul ediləcək. Bunu* SalamNews-*a müsahibəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib.*



**- "Azərbaycan Ailəsi Strategiyası"nda hansı məsələlər nəzrədə tutulub?**

- Dövlətin və cəmiyyətin əsas özəyi ailədir. Ailənin özəyi mükəməldirsə, dövlətin də qurdğu işlərin hamısı mükəmməldir. Çünki hər bir iş insan amili üçün görülür. Bu gün dövlətin qarşısında duran ən önəmli məsələlərdən biri Azərbaycan ailəsinin inkişafıdır. Bu istiqamətdə hazırda "Azərbaycan Ailəsi Strategiyası" işlənilib hazırlanıb və müvafiq dövlət qrumlarına göndərilib. Düşünürük ki, ilin sonuna və ya gələn ilin əvvəlinə kimi sənəd qəbul ediləcək. Strategiyada hər bir dövlət qurumunun mükəmməl fikri olmalıdır. Hesab edirik ki, bu, çox müəkəmməl sənəd olacaq. Burada ailələrlə bağlı bütün qanunvericilik bazası yenidən nəzərdən keçiriləcək. Ailə dedikdə, biz valideyn-övlad münasibəti başa düşürük. Bu istiqamətdə valideynlər uşaqların məsuliyyətini daşıyırlar. Konstitusiyanın 17-ci maddəsində valideynlərin övladlarına qarşı məsuliyyət daşıması maddəsi yer alıb və dövlət buna nəzarət edir. Bunu hər bir valideyn anlasa və dərk etsə, düşünürük ki, cəmiyyətimizdə bu qədər problem olmaz.

**- Bu gün ölkə üzrə ailələrdə boşanma halları çoxdurmu?**

- Dünyada olduğu kimi, Azərbaycanda da ailə problemləri əksər hallarda boşanmalara gətirib çıxarır. Bu zaman nələr baş verir? Əksər hallarda atalar övladlarına sahib çıxa bilmirlər. Bu gün bizi ən çox narahat edən məsələ ataların övladlarına sahib çıxmaması və azacıq da olsa, uşaqlara kəsilən alimentin (məvacibin) arxasında durmamasıdır. Bununla bağlı komitəyə saysız-hesabsız analar müraciət edirlər. Baxmayaraq ki, məhkəmə qərarı var və atalar aliment verməlidirlər, ancaq alimenti vermirlər.

**- Aliment ödəməyən şəxslərin qanunvericilikdə daha ağır cəzaların sərtləşdirilməsi planlaşdırılır-mı?**

- Aliment məsələsi çox vacibdir. Çünki, bu, çox böyük məbləğdə olmayan, ataları tərəfindən uşaqlara dəstək formasıdır. Amma çox təssüflər olsun ki, boşanan ailələrdə uşaqlar atasızlıq sindromu ilə üzləşirlər. Əksər hallarda ata və ya nənə, baba və digər yaxınlar öz soylarının davamına sahib çıxmaq istəmirlər. Hətta qadın iki uşaqla boşananda ata heç mənzillə də uşaqları təmin etmək fikrində olmur və bu da əksər hallarda uşaqların çətin durumda yaşamalarına gətirib çıxarır. "Azərbaycan Ailəsi Strategiyası"nda digər məsələlərlə yanaşı, bu da əsas problem kimi nəzərdən keçirilib. Qanunvericilikdə uşaqlarına aliment ödəməyən şəxslərə qarşı ağır cəzaların tətbiqi nəzərdə tutulur. Əgər milli-mənəvi dəyərlərdən danışırıqsa, nə üçün atalar uşaqlarına aliment ödəmək istəmirlər?! Bu, bizi çox narahat edir. Bu istiqamətdə komitə tərəfindən maarifləndirici tədbirlər həyata keçirilir və bu istiqamətdə qanunvericiliyin sərtləşdirilməsi üzərində işlər aparılır. Bütün bunlar yeni Strategiyada əksini tapacaq. Həmçinin, hazırda Uşaq hüquqlarının qorunması ilə bağlı da mühüm sənəd hazırlanır və bu məsələ burada da qeyd ediləcək.

**- Ümumiyyətlə, sənəddə daha hansı yeniliklər olacaq?**

- Strategiya çərçivəsində "Çoxuşaqlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi" istiqamətində qanun layihəsi hazırlanır. Bu gün çoxuşaqlı ailələrin sosial müdafiəsi önəmli məsələlərdən biridir. Hazırda Azərbaycanda əkiz uşaqlar, üçəm uşaqlar və ya çoxuşaqlı ailələr var. Bütün bunların hamısını normal cəmiyyətə inteqrasiya etmək üçün sağlam böyütmək lazımdır. Bəzi çoxuşaqlı ailələr var ki, orada müəyyən sosial problemlər yaranır və bu ailələrə dəstək olmaq vacibdir. Bütün bu problemlərin həlli Azərbaycan dövləti üçün vacib və əsas prioritet məsələdir. Strategiyada, ümumilikdə

Azərbaycan ailəsinin gələcək inkişafı istiqamətində, həm dövlət, həm də cəmiyyət səviyyəsində mühüm addımların atılması məsələləri əksini tapıb.

**- Azərbaycanda erkən nikahlarla bağlı nə deyə bilərsiniz? Ölkədə erkən nikahların sayı əvvəlki illərlə müqayisədə necədir?**

- Erkən nikahlarla bağlı mövzunu uzun illərdir müzakirə edirik. Hər dəfə bu mövzu müzakirə olunan zaman Cənub zonasından söhbət gedərdi. Amma çox ciddi maarifləndirmə işlərinin aparılması və qanunvericiliyin sərtləşdirilməsi nəticəsində Azərbaycanda erkən yaşda nikah quranların sayında xeyli azalma var.

*İ. Amid,*
*SalamNews*
*16.06.2013*

## İNTERNET İSTİFADƏÇİLƏRİNİN SAYI İKİ DƏFƏ ARTIB

*Azərbaycanda 2012-ci ildə əvvəlki illə müqayisədə hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı 65-dən 70-ə yüksəlib*

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidmətinin rəhbəri Müşfiq Əmirovun verdiyi məlumata görə, bununla da son 5 ildə internet istifadəçilərinin sayı 2 dəfə artıb

Ölkədə internetin inkişafını son 5 ildə hər 100 internet istifadəçisinə düşən beynəlxalq kanal tutumunun 12,9 dəfə artaraq 324 kbit/s-dən 4187 kbit/s-yə çatması da əyani sübut edir. Ölkədə telekommunikasiya və internet infrastrukturunun inkişafı, fiber-optik kabel şəbəkəsinin genişlənməsi, xidmətlərin qiymətinin dəfələrlə aşağı düşməsi Azərbaycanda internetin inkişafını şərtləndirir. Son 5 ildə internetin qiymətinin 12,5 dəfə azalması beynəlxalq internet kanalının tutumunun da 12,9 dəfə artmasına səbəb olub. Bununla yanaşı, müvafiq dövr ərzində internet xidmətləri bazarının həcmi də 4 dəfə böyüyüb. Ölkədə internetin inkişafı həm də ölkənin kompüterləşmə səviyyəsinin yüksəlməsi ilə əlaqədardır.



Qeyd edək ki, 2012-ci ilin yekunları üzrə aparılmış statistik təhlillərin nəticələrinə əsasən, ölkədə bütün ev təsərrüfatları arasında kompüteri olanların payı 47,7%, internetə çıxışı olanların payı isə 64,4% olub.

## AZƏRBAYCAN ƏHALİSİ NƏ QƏDƏRDİR?

*Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 55,3 min nəfər və ya 0,6% artaraq 2013-cü il iyul ayının 1-i vəziyyətinə 9 411,8 min nəfərə çatıb*

"APA-Economics"in xəbərinə görə, bu barədə Dövlət Statistika Komitəsinin məlumatında deyilir.

Məlumata əsasən, əhalinin sıxlığı bir kvadrat kilometrə 109 nəfər olub. Əhalinin 53,1%-i şəhər, 46,9%-i kənd yerlərində yaşayır, 49,7%-i kişilərdən, 50,3%-i qadınlardan ibarətdir. Əhalinin 22,3%-i 0-14 yaşda, 71,9%-i 15-64 yaşda, 5,8%-i isə 65 və yuxarı yaşda olanlardır. Hazırda hər 1 000 kişiyə 1 013 qadın düşür.

Bu ilin birinci yarısında ölkədə 83,1 min, yaxud hər gün orta hesabla 459 körpə doğulub, əhalinin hər 1 000 nəfərinə hesabı ilə doğum səviyyəsi 18,1 olub. Doğulanların 53,6%-i oğlanlar, 46,4%-i qızlardır. Körpələrin 876-sı əkiz, 15-i isə üçəm doğulub. Doğulan körpələr üçün 73,9 yaş, o cümlədən oğlanlar üçün 71,3 yaş, qızlar üçün 76,6 yaş ömür uzunluğu gözlənilir.

Yanvar-iyun aylarında ölkədə 37,9 min nikah və 5,7 min boşanma halı qeydə alınıb və 2012-ci ilin müvafiq dövrünə nisbətən əhalinin hər 1 000 nəfərinə hesabı ilə nikahların sayı 7,4-dən 8,2-yə qədər artıb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (1,2) qalıb.

Bu ilin altı ayı ərzində daimi yaşamaq üçün Azərbaycana 1,1 min nəfər gəlib və 0,1 min nəfər ölkədən gedib.

## VENESUELA PREZİDENTİ EVLƏNİB

*Venesuelada dövlət başçısı Uqo Çavesin ölümündən sonra keçirilmiş prezident seçkilərində qalib gələn 50 yaşlı Nikolas Maduro 21 il ərzində vətəndaş nikahında olduğu 60 yaşlı xanımı Siliya Floreslə evlənib*



«Ölkə Konstitusiyasının tələblərinə əsasən, Siliya və mən münasibətlərimizi qanunilaşdirdik» - deyə, Maduro söyləyib. Ölkə parlamentinin spikeri olmuş S. Flores indi Venesuelanın baş prokurorudur. Maduro ona bu ilin aprelində prezidentliyə seçkiqabağı kampaniya zamanı evlənəcəyini boyun olmuşdu. Nikahı paytaxt Karakasın bələdiyyə sədri Xorxe Rodriges rəsmiləşdirib. Əvvəlki nikahlardan Maduronun 1, Floresin isə 3 övladı var.

Maduronun sözlərinə görə, onların əlaqəsi 1992-ci ildən, hələ Siliya vəkil işləyərkən başlayıb. Onda Flores hərbi çevrilişə cəhd edən hərbçiləri, o cümlədən Uqo Çavesi müdafiə edirmiş. «Onun evini azı 20 dəfə axtarıblar. Bir dəfə 9 yaşlı oğlu ilə birlikdə həbsə də atmışdılar... Onun tək günahı komandan Uqo Çavesin vəkili olması idi» - deyə, Maduro xanımı haqda bunları danışıb.

## FUKUSİMADA RADİASİYANIN SƏVİYYƏSİNİ ÖLÇƏN AVTOBUS İŞLƏYİR

*"Kyodo News" saytı məlumat verir ki, xüsusi displeydə yayımlanan bu ölçmələrin nəticələri regionun bütün sakinləri üçün əlyetərlidir*

Aşağı şüalanma zonaları göy rənglə işarələnir. Şüalanmanın yüksəldiyi yerlər sarı rənglə göstərilir. 2011-ci ildə qəza baş vermiş "Fukusima-1" Atom Elektrik Stansiyasının (AES) operator-şirkəti avqustun 20-də həmin qəzadan sonrakı dövrdə radioaktiv su sızmasının xeyli artdığını bildirmişdir. TEPCO-nun məlumatlarına görə, sızma rayonunda şüalanmanın səviyyəsi saatda 100 millizivert təşkil etmişdir. AES operatorunun mütəxəssisləri radioaktiv suyun cənubdakı drenaj kanallarından biri vasitəsilə okeana axa biləcəyini istisna etmirlər.

Yaponiyanın nüvə nizamlayıcısı bu hadisəni əvvəlcə İNES şkalası üzrə təhlükənin birinci səviyyəsi kimi qeydə almışdır. Lakin komitənin çərşənbə günü keçirilən iclasında sızmanın həcmi və radiasiya şüalanmasının səviyyəsi nəzərə alınmaqla, bu göstəricinin təhlükənin üçüncü səviyyəsinə qədər artırılması barədə təklif irəli sürülmüşdür.

## "FACEBOOK" UN KAPİTALLAŞDIRMA DƏYƏRİ

*"NASDAQ" birjasında Amerikanın "Facebook" sosial şəbəkəsinin kapitallaşdırma dəyəri 100 milyard dolları ötmüşdür*

BBC-nin məlumatına görə, hərracın bağlanması zamanı "Facebook"un bir səhminin qiyməti 40,55 dollar, kapitallaşdırma dəyəri isə 98,75 milyard dollar təşkil etmişdir.

"Facebook" dünyanın ən böyük sosial şəbəkəsidir. İkinci rübün yekununa görə, "Facebook"un mədaxili 1,813 milyard dollar təşkil etmişdir.

Aprel-iyun aylarında şirkətin əməliyyat gəliri 562 milyon dollar, xalis gəlir isə 333 milyon dollar olmuşdur. "Facebook" sosial şəbəkəsində qeydiyyatdan keçmiş istifadəçilərin sayı 1,15 milyarddır.



## KEÇMİŞ VİTSE - PREZİDENTİN QIZI SENATOR OLMAQ İSTƏYİR

*2001-2009-cu illərdə ABŞ prezidentinin müavini olmuş Dik Çeynin qızı Elizabet Çeyni Vaymonq ştatının senatorluğu uğrunda mübarizəyə qatılıb*



46 yaşlı Elizabet tanınmış respublikaçı siyasətçinin iki qızından böyüyüdür. Atasının prezident müavini olduğu illərdə o, iki dəfə Yaxın Şərq üzrə dövlət katibinin köməkçisi vəzifəsini daşıyıb. E.Çeyni Beynəlxalq inkişaf üzrə Agentlikdə də işləyib.

Son illər o, «Fox News» telekanalında siyasi şərhçi kimi çalışır. 2014-cü ildə keçiriləcək senatorluq uğurunda onun rəqibi hazırkı respublikaçı senator Mayk Enzidir. Onlar arasında ilkin seçki keçiriləcək.

## 2025-Cİ İLDƏ DÜNYA ƏHALİSİNİN 2/3 HİSSƏSİ SU QITLIĞI HİSS EDƏCƏK

*Hazırda dünyada su qıtlığından əziyyət çəkən rayonların sayı artır*

Afrikadakı Sahil regionu dünyanın ən quraqlıq yerlərindən biridir. Bu rayonda yerləşən ölkələr ən ağır quraqlıqlardan əziyyət çəkirlər. BMT-nin Xəbərlər Mərkəzi bildirir ki, insanlar əsasən qrunt sularından istifadə edirlər və onlara tələbat daim artır.

Beynəlxalq Atom Enerjisi Agentliyi (IAEA) Sahil ölkələri ilə birlikdə bölgədə qrunt sularının aşkara çıxarılması sahəsində iş aparır. Bu zaman "İzotop hidrologiya" adlı məşhur metoddan istifadə edilir.

IAEA-nın bu proqram üzərində işləyən əməkdaşı Erik Koul qeyd etmişdir ki, bu yolla alınan hidroloji məlumatlar qrunt suları ehtiyatlarından birlikdə səmərəli istifadəsinə yönəldilmiş kompleks tədbirlərin əsası ola bilər. Sahil regionunda Agentliyin yeni layihəsi beş transsərhəd su bölgəsini əhatə edir.

IAEA bildirir ki, hazırda dünyada su qıtlığından əziyyət çəkən rayonların sayı artır. Növbəti iyirmi ildə suya ümumi tələbatın 40 faiz artacağı gözlənilir. 2025-ci ildə dünya əhalisinin 2/3 hissəsinin orta və ya kəskin su qıtlığı olan ölkələrdə yaşayacağı istisna edilmir.

İndi məsələ bu məhdud içməli su ehtiyatlarını necə idarə etməyi öyrənməkdən ibarətdir. Alınan məlumatlar hidroloqların yeraltı su mənbələrinin xəritələrini tərtib etməsinə, iqlimşünasların isə gələcək hadisələrin nəticələrini proqnozlaşdırmasına imkan verəcəkdir.

## HƏR FAŞİST ÜÇÜN 25 MİN AVRO

*"Gecdir, ancaq çox da gec deyil – son imkan əməliyyatı" adlı kampaniya çərçivəsində Almaniyanın Berlin, Köln və Hamburq şəhərlərində iki minə yaxın afişa asılıb*




Bu tədbirin keçirilməsində məqsəd indiyə kimi cəzalandırılmayan faşistlərin xalqın yardımı ilə aşkarlanıb, məsuliyyətə cəlb edilməsidir. Hər Hitler Almaniyası faşistinin aşkarlanmasına yardım edənə 25 min avro məbləğində mükafat veriləcək. Kampaniyanın təşkilatçısı Efraim Zuroff bildirib ki, 60 ildən artıq müddət keçməsinə baxmayaraq, 120 suçlu faşist hələ də yaşayır və onların hazırda 90-dan artıq yaşı var.

## İŞÇİ İNTİZAM MƏSULİYYƏTİNƏ HANSI HALDA CƏLB EDİLİR?

*İşçilər əmək və icra intizamını pozduqda intizam məsuliyyətinə cəlb edilirlər*



Bakı Hüquq Mərkəzi (BHM) hüquq şirkətinin hüquq məsləhətçisi Pərviz Hüseynov bildirib ki, intizam məsuliyyəti yalnız işçi intizam xətası törətdikdə yarana bilər. Belə ki, işəgötürən, işçi vəzifələrini yerinə yetirmədikdə və ya hüquqlarından sui-istifadə etdikdə və yaxud əmək müqaviləsi üzrə öhdəliklərini icra etmədikdə intizam məsuliyyətinə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə digər məsuliyyətə cəlb edilir.

P.Hüseynovun sözlərinə görə, işçi əmək funksiyasını tam və ya qismən yerinə yetirmədikdə, yaxud keyfiyyətsiz yerinə yetirdikdə, əmək qanunvericiliyi və əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifələrini, müəssisədaxili intizam qaydalarını pozduqda işəgötürən ona intizam tənbehlərindən birini verə bilər.

P.Hüseynov bildirib ki, Əmək Məcəlləsində intizam tənbehinin töhmət, sonuncu xəbərdarlıqla şiddətli töhmət, kollektiv müqavilələrdə nəzərdə tutulmuşdursa, aylıq əmək haqqının 1/4-i məbləğindən çox olmamaq şərtilə cərimə etmək, işdən çıxarma kimi növləri müəyyən edilir:

"İşəgötürən intizam tənbehini verərkən işçinin şəxsiyyətini, kollektivdə nüfuzunu, peşəkarlıq səviyyəsini, onun törətdiyi xətanın xarakterini nəzərə almalıdır. Qeyd olunan intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan işçiyə yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi sayılmır".

Hüquq məsləhətçisi qeyd edib ki, intizam tənbehi verilməzdən öncə işəgötürən işçidən yazılı izahatın verilməsini tələb edir. İşçinin yazılı izahat verməkdən imtina etməsi ona intizam tənbehi verilməsini istisna etmir: "İntizam tənbehi, işçi tərəfindən əmək və ya icra intizamının pozulduğu aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. İşçinin xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir".

Vəkilin sözlərinə görə, intizam xətasının törədildiyi gündən 6 ay keçdikdən sonra işçiyə intizam tənbehi verilə bilməz. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin (yoxlanılmasının, təftiş aparılmasının) nəticələri ilə aşkar edilmiş vəzifə hüquqpozması ilə bağlı intizam xətalarına görə isə işçiyə həmin xətalar törədildiyi gündən iki il keçdikdən sonra intizam tənbehi verilə bilməz. Cinayət işi üzrə icraat bu müddətə daxil edilmir.

İntizam tənbehi, yalnız işçi ilə əmək müqaviləsi bağlamaq, onun şərtlərini dəyişdirmək və ona xitam vermək səlahiyyətinə malik olan işəgötürən, yaxud da işəgötürən tərəfindən səlahiyyət verilmiş şəxs tərəfindən verilə bilər.

Bir intizam xətasına görə yalnız bir intizam tənbehi verildiyini deyən hüquqşünas bildirib ki, intizam tənbehi işçiyə, işdə olduğu iş günü ərzində verilə bilər. Məzuniyyətdə, ezamiyyətdə olan, əmək qabiliyyətini müvəqqəti itirmiş işçiyə bu müddət ərzində intizam tənbehi verilə bilməz: "İntizam tənbehi işəgötürənin əmri (sərəncamı, qərarı) ilə verilir. İşçi həmin əmrlə (sərəncamla, qərarla) tanış edilməli və onun tələbi ilə əmrin surəti ona təqdim olunmalıdır. İntizam tənbehi verilməsi barədə əmrdə (sərəncamda, qərarda) işçinin şərəf və ləyaqətini alçaldan, onun şəxsiyyətini, mənəvi hisslərini gözdən salan, habelə intizamsızlığına görə qisas almaq motivli məlumatların göstərilməsi yolverilməzdir".

Vəkil qeyd edib ki, intizam tənbehi əməlin aşkarlandığı vaxtdan 1 ay müddətində verilə bilər.

İntizam tənbehi verilən gündən 6 ay müddətində qüvvədə olur. Bu müddət ərzində işçi yeni bir xəta törətməzsə, o, intizam tənbehi almamış hesab olunur: "İntizam tənbehinin qüvvədə olduğu müddət ərzində əmək funksiyasını yüksək peşəkarlıqla yerinə yetirdiyinə, müəssisədaxili intizam qaydalarına əməl etdiyinə görə işçi hər hansı həvəsləndirmə vasitələri ilə mükafatlandırılarsa, mükafatlandırıldığı gündən ona verilmiş intizam tənbehi qüvvədən düşmüş hesab edilir".

Hüquq məsləhətçisi qeyd edib ki, işçi intizam tənbehi verilərkən işəgötürən tərəfindən qanunvericiliyin tələblərinin və onun hüquqlarının pozulduğunu iddia edərsə, fərdi əmək mübahisəsinin həlli üçün məhkəməyə müraciət edə bilər.

## İŞDƏN QOVULMAQ İSTƏMİRSƏNSƏ...



*"Forbes" jurnalı işi itirməyə səbəb ola bilən 13 vərdişin siyahısını tərtib edib. İlk yeri bu günün işini sabaha saxlamaq vərdişi tutur.*

2-ci yerdə yalan danışmaq, 3-cü yerdə pessimist olmaq durur. Daha sonra işə gecikmək, elektron poçtunuzu gec-gec yoxlamaq, sosial şəbəkə bağlılığı, bədən dilindən düzgün istifadə etməmək, diqqətsizlik, pis danışıq qabiliyyəti, "yalnız canavar" sindromutəkliyə meyllilik, tez özündən çıxmaq, məsuliyyətsizlik, mədəniyyətsizlik.

Əgər işdən qovulmaq istəmirsiznizsə bu vərdişləri unudun.

## SOYAD SONLUĞUNU DƏYİŞDİRMƏK İSTƏYİRSİNİZ?

*Bir çox insanlar soyadının sonluğunu dəyişdirmək istəyirlər, lakin bunun üçün hansı prosedur qaydalardan keçməli olduqlarını bilmirlər*



Bununla əlaqədar sorğunu cavablandıran Bakı Hüquq Mərkəzinin hüquq məsləhətçisi Dünyamin Novruzov qeyd edib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 79 nömrəli 12 may 2011-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın 5.1-ci bəndinə görə Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşının ərizəsinə əsasən, onun mövcud soyadının sonluğuna dəyişiklik edilir.

Hüquqşünasın sözlərinə görə, həmin Qaydaların 5.3-cü bəndinə əsasən soyadın sonluğuna dəyişiklik edilməsi ilə əlaqədar müvafiq akt qeydlərində bu barədə qeyd edilir və yeni şəhadətnamələr verilir: "Vətəndaş soyadın sonluğuna dəyişiklik edilməsi barədə ərizə ilə yaşayış yeri və ya müvafiq aktın olduğu yer üzrə qeydiyyat şöbəsinə müraciət etməlidir. Əgər müvafiq akt qeydləri (ərizə verən şəxsin doğumu, nikahı, övladlarının doğumu və sair) ərizəni qəbul etmiş qeydiyyat şöbəsindədirsə, onda həmin vətəndaşın soyadının sonluğuna dəyişiklik orada ediləcək və əvvəllər verilmiş şəhadətnamələr ləğv edilməklə ona yeni şəhadətnamələr veriləcək. Əgər vətəndaşın müvafiq akt qeydləri müraciət etdiyi deyil, digər qeydiyyat şöbəsində olarsa, ərizə 3 gün müddətində oraya göndəriləcək. Sonuncu 15 gün müddətində daxil olmuş ərizə əsasında həmin akt qeydlərinə zəruri dəyişiklik edəcək, dəyişikliyin əsasını və tarixini göstərməklə müvafiq qeydlər aparacaq. Bu qeydlər onu aparan şəxsin imzası və möhürlə təsdiq edilir. Vətəndaşa təqdim edilməsi üçün yeni şəhadətnamə 3 iş günü müddətində ərizəni qəbul etmiş qeydiyyat şöbəsinə göndəriləcək".

Ərizəni qəbul etmiş qeydiyyat şöbəsi yeni şəhadətnamənin daxil olması barədə vətəndaşa 3 iş günü müddətində məlumat verəcək. Bundan sonra həmin vətəndaş müraciət edərək yeni şəhadətnaməni oradan əldə edə bilər.

## TİBBİ ŞƏHADƏTNAMƏNİ ALMAĞIN YENİ QAYDASI

*Valideynlər yeni doğulmuş övladları haqqında tibbi şəhadətnamə surətini daha asan alacaqlar*

Səhiyyə Nazirliyi "Doğum haqqında tibbi şəhadətnamə" elektron registrindən məlumatların verilməsi" adlı növbəti elektron xidmətini "Elektron hökumət" portalı vasitəsilə istifadəyə verib. Xidmətdən istifadə etmək üçün portala giriş edərək, nazirliyin müvafiq bölməsinə daxil olmaq lazımdır. Həmin bölmədən sözügedən elektron xidməti seçdikdən sonra valideynin (ananın) yeni doğulmuş övladı haqqında şəhadətnamə surətini əldə etməsi mümkündür.

## MOSKVANIN YERÜSTÜ NƏQLİYYATINDA PULSUZ "Wİ-Fİ" SINAQLARINA BAŞLANMIŞDIR

Moskvanın bir sıra yerüstü nəqliyyat marşrutlarının sərnişinləri artıq pulsuz simsiz internetdən istifadə etmək imkanı əldə etmişlər

Moskva Nəqliyyat Departamentindən verilən məlumata görə, şəhər üzrə hərəkət edən 25 avtobus, trolleybus və tramvayda "Wi-Fi" texnologiyasına çıxış nöqtələrinin sınağına başlanılmışdır.

Sınaqlar yarım il davam edəcək və bundan sonra layihənin gələcək inkişafı ilə bağlı qərar qəbul olunacaqdır. Hərəkətdə olan nəqliyyat vasitələrində "CDMA-450" şəbəkəsinin siqnalını qəbul edən və ötürən, onu abunəçi qurğularına "Wi-Fi" şəklində paylayan routerlər quraşdırılmışdır.

## İZLƏNMƏYƏ QARŞI MÜBARİZƏ

*İnternet cəmiyyəti qlobal şəbəkədə izlənmə ilə mübarizə üçün texnologiya hazırlayacaq*

Nəhəng internet tərtibatçıları ABŞ və Böyük Britaniya tərəfindən istifadə olunan izləmə proqramlarına qarşı mübarizə aparmaq niyyətindədirlər. İnternet standartlarının işlənməsi ilə məşğul olan İnternet Mühəndis Şurası (Internet Engineering Task Force, IETF) internet səhifələrinin və brauzerlərin mübadilə etdiyi bütün məlumatları şifrləmək barədə düşünür.

Təcrübədə IETF bank və elektron ticarət mağazalarının öz müştərilərini qorumaq üçün istifadə etdikləri təhlükəsiz rabitə mexanizmini tətbiq etmək istəyir. Hazırda plan işlənmə mərhələsindədir. IETF-nin nümayəndələri internet istifadəçilərini hökumət və dövlət şirkətləri tərəfindən izlənməkdən mühafizə etmək əzmindədirlər.

"Google Chrome"un hazırlanmasında iştirak edən proqram təminatı mühəndisi Mayk Belş bildirmişdir ki, Edvard Snouden tərəfindən məxfi məlumatlar açıqlandıqdan sonra cəmiyyət dünyaya fərqli yanaşmağa başlamışdır. Hazırda internetdə məlumatın şifrlənməsi çox mühüm məsələdir.

Tərtibatçı, IETF-nin işçi qrupunun sədri Mark Nottingem Berlində keçirilmiş konfransda bəyan etmişdir ki, şuranın üzvləri internetdə şifrləmə sisteminin hazırlanmasının zəruriliyinə dair yekdil qərar qəbul etmişlər. M.Nottingem hesab edir ki, IETF-nin planı həyata keçirilməmişdən əvvəl onu internet cəmiyyəti ilə müzakirə etmək lazımdır. Hazırda internetdə qovşaqlar arasında məlumatların mühafizəli ötürülməsini təmin edən "TLS (Transport Layer Security)" kriptoqrafiya protokolundan mütləq istifadə məsələsi müzakirə olunur. Bu protokolun 2014-cü ildə tətbiq edilməsi planlaşdırılır.

Öz növbəsində ekspertlər "TLS"in internet istifadəçilərini izləməyə imkan verməməsi ilə bağlı iddiaları şübhə altına alırlar. Bu, onunla əlaqədardır ki, bacarıqlı hakerlər şifrləməni sındırmaq üçün üsul tapacaq və ya sistemlərdə mövcud olan digər boşluqlardan istifadə edəcəklər.

## "ERİCSSON"UN MÖHTƏŞƏM LAYİHƏSİ

*"Ericsson" şirkəti üç yeni informasiya-rabitə texnologiyaları mərkəzinin tikintisinə 7 milyard İsveç kronası (1,1 milyard ABŞ dolları) xərcləməyi planlaşdırır*

Beş il müddətində "Ericsson" İsveçdə (Stokholm və Linkopinq) iki mərkəz və Kanadada bir mərkəz tikəcəkdir. Şirkətin ən böyük tədqiqat mərkəzi Stokholmda yerləşir. Ötən il şirkətin tədqiqat fəaliyyətinə ayırdığı vəsait xərclərinin 14 faizini təşkil etmişdir.

"Ericsson" İsveçin telekommunikasiya avadanlığı istehsalçısıdır. Şirkətin 2013-cü ilin ikinci rübündə gəliri 8,5 milyard dollar olmuşdur.